# HƏYAT BİLGİSİ

METODİK VƏSAİT

6



LAYİHƏ

NÜŞABƏ MƏMMƏDOVA
KÖNÜL MAHMUDOVA

*Ümumi təhsil məktəblərinin 6-cı sinifləri üçün*

# HƏYAT BİLGİSİ

*fənni üzrə*

## METODİK VƏSAİTİ

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

LAYİHƏ

**Mündəricat**


Dərslik komplekti haqqında ........ 3
VI sinif Həyat bilgisi fənni üzrə məzmun standartları ........ 5
Tematik planlaşdırma ........ 7
Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli ........ 9
Həyat bilgisi fənninin tədrisində istifadə olunan təlim forma və üsulları ........ 11
İllik planlaşdırmanın aparılmasına dair tövsiyələr ........ 18
Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr ........ 22
Mövzuların gündəlik planlaşdırılmasına dair tövsiyələr ........ 29
Mövzuların gündəlik planlaşdırılmasına dair nümunələr ........ 35

**Mövzu 1.** Ünsiyyət mədəniyyəti ........ 47
**Mövzu 2.** Davranış normaları ........ 49
**Mövzu 3.** Ailə və Vətən qarşısında mənəvi borcumuz ........ 51
**Mövzu 4.** Dini ibadətlər və mərasimlər ........ 53
**Mövzu 5.** Dövlətdə idarəçilik ........ 55
**Mövzu 6.** Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları ........ 56
**Mövzu 7.** Hüquqlarımızın qorunması ........ 58
**Mövzu 8.** İqtisadi inkişaf ........ 60
**Mövzu 9.** Maddələrin tərkibi və xassələri ........ 61
**Mövzu 10.** Elementlər ........ 63
**Mövzu 11.** Bir maddədən yeni maddə alına bilərmi? ........ 64
**Mövzu 12.** Saf maddələr və qarışıqlar ........ 66
**Mövzu 13.** Qeyri-üzvi və üzvi maddələr ........ 68
**Mövzu 14.** Üzvi maddədən canlıya ........ 69
**Mövzu 15.** İnsan – təbiətin ali varlığı ........ 70
**Mövzu 16.** Sağlamlığın şərtləri ........ 71
**Mövzu 17.** Gigiyena sağlamlığın şərtidir ........ 72
**Mövzu 18.** Yoluxucu xəstəliklərdən qorunma yolları ........ 73
**Mövzu 19.** Təhlükəsizliyin təmin olunması ........ 75
**Mövzu 20.** Təbiətdəki təhlükəli hadisələrdən qorunaq ........ 77
**Mövzu 21.** Texnogen mənşəli qəzalardan qorunaq ........ 78
**Mövzu 22.** Yol nişanlarına diqqət edək ........ 79

Summativ qiymətləndirmə vasitələrinə dair nümunələr ........ 81
İstifadə edilmiş və müəllimin istifadə edə biləcəyi mənbələr ........ 88


LAYİHƏ

# DƏRSLİK KOMPLEKTİ HAQQINDA

Hörmətli müəllimlər! Bildiyimiz kimi, tədris planına əsasən Həyat bilgisi fənni ibtidai və ümumi orta təhsil səviyyələrində tədris olunur. VI sinif şagirdləri üçün nəzərdə tutulmuş dərslik komplekti dərslik və müəllim üçün metodik vəsaitdən ibarətdir.

Həyat bilgisi fənni üzrə 4 məzmun xətti müəyyənləşdirilmişdir. Müəyyənləşdirilmiş məzmun xətlərinin köməyi ilə şagirdlərin şüurunda canlı və cansız aləmin vahid, bütöv və bölünməz obrazı yaradılır, eyni zamanda, şagirdlər özlərinin bioloji, psixoloji, sosial və mənəvi tərəflərini dərk etmiş olurlar.

Dərsliyin və bu dərslikdən daha effektiv istifadə üçün nəzərdə tutulan müəllim üçün metodik vəsaitin bəzi xüsusiyyətlərini nəzərinizə çatdırmaq istərdik.

VI sinif Həyat bilgisi dərsliyində müvafiq fənn kurikulumunun məzmununa daxil olan bütün məzmun standartları reallaşdırılmışdır. Standartların reallaşdırıldığı mövzularda şagirdlərin yaş xüsusiyyətləri onların sadə dildə və lakonik olması nəzərə alınmışdır. Bu məqsədlə çoxsaylı sxemlərdən, diaqramlardan, şəkillərdən, praktik tapşırıqlardan istifadə olunmuş, yeni sözlərin, terminlərin izahına, maraqlı məlumatlara yer ayrılmışdır. Təlim materiallarının düzülməsində sadədən mürəkkəbə prinsipi, eyni zamanda, məntiqi ardıcıllıq nəzərə alınmışdır. Mövzular üzrə verilmiş sual və tapşırıqlar şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına yönəldilmişdir. Ümid edirik ki, bu tapşırıqlar sizlərə standartları reallaşdırmaqda kömək edəcəkdir.

Dərslikdəki mövzular aşağıdakı kimi qruplaşdırılmışdır:


2 Davranış normaları

I bölmə

A — *Əxlaqi keyfiyyət və qaydaları, onların cəmiyyətdə formalaşmasını, rolunu və s. məsələləri etika tədqiq edir. Etika fəlsəfə elminin sahələrindən biri olub, əxlaq haqqında elmdir. Bəs etik qaydalar hansılardır? Biz hansı etik qaydalara əməl etməliyik?*

C — Tarix boyu ailə, məişət, istehsalat və ictimai həyatın bütün sahələrində insanların əxlaqı onların münasibətlərində özünü göstərir. Əxlaqın formalaşması insanı əhatə edən mühitdən asılıdır. Yəni ailə, bağça, məktəb və digər sahələr əxlaqın formalaşmasında mühüm rol oynayır.

Davranış normaları insanlara cəmiyyətdə nəyi, nə vaxt və necə etmək lazım olduğunu izah edən qaydalardır. İnsanın cəmiyyətdə könüllü qəbul etdiyi davranış qaydaları *əxlaq qaydalarıdır*. Dövlət tərəfindən qanun halına salınan, icrası məcburi olan, əməl edilmədikdə isə cəza nəzərdə tutulan normalar isə *hüquq normalarıdır*.

B — ***Əxlaq və hüquq normalarına zidd olan davranışları seçin:***

təhqiramiz sözlərdən istifadə, oğurluq, fiziki güc tətbiq etmək, doğruçuluq, yardımsevərlik, qeybətcillik, böhtan atmaq, terrorçuluq, insan sağlamlığına və ətraf mühitə ziyan vurmaq, girov götürmək, tarixi mədəniyyət abidələrini dağıtmaq.

C — Əxlaqi norma insana əməl etməli olduğu qaydaları öyrədir, davranışımızın ayrı-ayrı tərəflərini xarakterizə edir.

Bilirsiniz ki, paxıllıq etmək, yalan danışmaq, böhtan atmaq, satqınlıq, ikiüzlülük, qeybət, qorxaqlıq, iradəsizlik, etibarsızlıq, israfçılıq, tənbəllik, bədgümanlıq kimi zərərli keyfiyyətlər cəmiyyət tərəfindən qəbul edilmir.

Əməksevərlik, insanpərvərlik, sadəlik, təvazökarlıq, halallıq, işgüzarlıq, dostluq, düzlük, doğruçuluq, vətənpərvərlik və s. isə müsbət keyfiyyətlər hesab olunur. Tarix boyu milli-mənəvi dəyərlərə böyük hörmətlə yanaşan ata-babalarımız bizi hər zaman əxlaq və davranış qaydalarına əməl etməyə, böyüklərə hörmətlə, kiçiklərə qayğı ilə yanaşmağa çağırıb. Mənəvi münasibətlər formalaşdıqca davranış mədəniyyəti də formalaşmışdır.

E — Yalan danışmaqdan çəkin. Çünki hər kəs sənin bu xasiyyətini bilərsə, doğru sözünə də inanmaz.

*Azərbaycan mütəfəkkiri Abbasqulu ağa Bakıxanov*

13

***Cəmiyyətdə davranış qaydaları:***
- ✓ *başqalarına etdiyimiz yaxşılıqları onların üzünə vurmamaq;*
- ✓ *başqalarının qüsurlarına rişxənd etməmək;*
- ✓ *danışanın sözünü kəsməmək;*
- ✓ *insanların çox olduğu yerdə bir-birinizi itələməmək;*
- ✓ *başqalarının dərdinə şərik olmaq və s.*

F — **Sual və tapşırıqlar:**

**1.** Müsbət əxlaqi keyfiyyətlər hansılardır?
**2.** Hansı əxlaqi keyfiyyətlər daha mühüm hesab oluna bilər? Fikrinizi əsaslandırın.
**3.** Kinoteatrda və gəzintidə əməl olunacaq davranış qaydaları hansılardır? Bu qaydalara əməl etmək nə üçün vacibdir?
**4.** Metroda və muzeydə hansı davranış qaydalarına əməl olunmalıdır?
**5.** Davranışların formalaşmasında təqlidçiliyin* rolu böyükdür. Siz davranışınızla hansı əsərin, filmin qəhrəmanına oxşamaq istərdiniz. Nə üçün belə hesab edirsiniz?
**6.** Düzgün davranış qaydalarını seçin və həmin qaydaların əhəmiyyətini yazın.

*Nəqliyyatda kimisə itələmək, dərdə şərik olmaq, qarşısındakını dinləmək, fiziki qüsuru üzə vurmamaq, danışanın sözünü kəsmək, böyüklərə yol vermək, uşaqları incitməmək, münaqişə yaratmaq.*

| Düzgün davranış qaydaları | Əhəmiyyəti |
|---|---|
| ***** | ***** |

* Təqlid – başqasının hərəkətini, danışıq tərzini və s. xüsusiyyətlərini təkrar etmə, özünü ona oxşatma

17

LAYİHƏ

Ⓐ **Motivasiya.** Mövzu ilə bağlı problemli situasiya yaradılır və əksər hallarda suallarla yekunlaşdırılır.

Ⓑ **Praktik tapşırıqlar.** Bu işarə altında verilmiş sual və tapşırıqlar şagirdləri fəaliyyətə cəlb etmək üçündür. Ancaq bu zaman bəzi tapşırıqların müəllim tərəfindən aparılması tövsiyə olunur.

Ⓒ **Yeni biliklər.** Mövzunun əsas məzmununu əhatə edir. Burada mövzu ilə bağlı izahlar, anlayışlar, təriflər və s. verilir.

Ⓓ **Sxemlər.** Mövzu ilə bağlı bəzi məlumatlar verilir.

Ⓔ **Maraqlı məlumatlar.** Mövzu ilə bağlı statistik məlumatlar, maraqlı faktlar, görkəmli şəxsiyyətlərin qiymətli kəlamları verilmişdir. Dərs zamanı müəllimlər bəzi sual və tapşırıqlardan iş vərəqlərinin hazırlanmasında istifadə edə bilərlər.

Ⓕ **Suallar və tapşırıqlar.** Verilmiş sualların bəzisi mövzu ilə bağlı araşdırma aparıb əlavə məlumatlar əldə etməyə imkan yaradır. Sizi tədqiqatçılığa yönəldir. Bir qisim suallar öyrəndiklərinizi yoxlamaq məqsədilə verilmişdir.

**Qeyd:** Sinifdəki şagirdlərin sağlamlıq imkanları, fərdi xüsusiyyətləri, maraq və ehtiyacları müxtəlifdir. Bu müxtəliflikdən irəli gələrək onları sağlam və ya inklüziv uşaqlara bölməməli, onlar üçün müvafiq təlim strategiyası müəyyənləşdirilməlidir.

***Müəllim üçün metodik vəsait*** sizə öz işinizi qurmağa – dərsi planlaşdırmağa, qiymətləndirmə vasitələrinin hazırlanmasına yardımçı olacaqdır.

Metodik vəsaitdə hər bir mövzunun tədrisi ilə bağlı tövsiyələr öz əksini tapır. Bu bizim tərəfimizdən sizə istiqamət vermək üçün tərtib olunmuşdur. Verilmiş standartların tələblərinə müvafiq olaraq sizlər öz fəaliyyətinizdə sərbəstsiniz. Öz sinfinizin, məktəbinizin, regionunuzun imkan və şəraitinə müvafiq strategiyanızı müəyyənləşdirə bilərsiniz. Ümidvarıq ki, hazırladığımız dərslik və metodik vəsait bu işdə sizə düzgün istiqamət verəcəkdir.

Müəllim üçün metodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

- **VI sinif Həyat bilgisi fənni üzrə məzmun standartları;**
- **Tematik planlaşdırma;**
- **Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli;**
- **Həyat bilgisi fənninin tədrisində istifadə olunan təlim formaları və üsulları;**
- **İllik planlaşdırmanın aparılmasına dair tövsiyələr;**
- **Mövzuların illik planlaşdırılması;**
- **Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr;**
- **Mövzuların gündəlik planlaşdırılmasına dair tövsiyələr;**
- **Mövzuların gündəlik planlaşdırılmasına dair nümunələr;**
- **Mövzuların gündəlik planlaşdırılması;**
- **Summativ qiymətləndirmə vasitələri;**
- **İstifadə edilmiş və müəllimin istifadə edə biləcəyi mənbələr.**

LAYİHƏ

# VI SİNİF HƏYAT BİLGİSİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**VI sinfin sonunda şagird:**

- maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir;
- insanı təbiətin bir hissəsi kimi səciyyələndirir;
- cəmiyyətin idarə olunmasını və dövlətin funksiyalarını izah edir;
- insan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir, topladığı materialları təqdim edir;
- iqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir;
- sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir;
- ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir, əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir;
- ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir, dini ibadət və mərasimləri müqayisə edir;
- fövqəladə hadisələr və həyat fəaliyyəti zamanı tələb olunan təhlükəsiz davranış qaydalarını izah edir.

**Məzmun xətləri üzrə əsas və alt standartlar**

**1. Təbiət və biz**
**Şagird:**
***1.1. Varlıq, təbiət və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.***
1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir.

***1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.***
1.2.1. İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir.

**2. Fərd və cəmiyyət**
**Şagird:**
***2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***
2.1.1. Cəmiyyətin idarə olunmasını şərh edir.
2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir.

***2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***
2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir.

2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti ilə bağlı topladığı materialları təqdim edir.

LAYİHƏ

***2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***
2.3.1. İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir.

**3. Mənəviyyat**
Şagird:
***3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.***
3.1.1. Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir.

***3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.***
3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir.
3.2.2. Ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir.

***3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.***
3.3.1. Dini ibadət və mərasimləri müqayisə edir.

**4. Sağlamlıq və təhlükəsizlik**
Şagird:
***4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.***
4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir.

***4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***
4.2.1. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir.
4.2.2. Yol nişanlarının təyinatına uyğun bacarıqlar nümayiş etdirir.

***4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdirir.***
4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir.



LAYİHƏ

# TEMATİK PLANLAŞDIRMA

| Planlaşdırma | Saat |
|---|---|
| **Mənim mənəvi aləmim** | |
| Ünsiyyət mədəniyyəti | 2 |
| Davranış normaları | 1 |
| Ailə və Vətən qarşısında mənəvi borcumuz | 2 |
| Dini ibadətlər və mərasimlər | 1 |
| KSQ | 1 |
| **Dövlətimə arxalanıram** | |
| Dövlətdə idarəçilik | 1 |
| Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları | 1 |
| Hüquqlarımızın qorunması | 2 |
| İqtisadi inkişaf | 1 |
| KSQ | 1 |
| **Cansızdan canlıya** | |
| Maddələrin tərkibi və xassələri | 2 |
| Elementlər | 1 |
| Bir maddədən yeni maddə alına bilərmi? | 1 |
| KSQ | 1 |
| Saf maddələr və qarışıqlar | 1 |

LAYİHƏ

| Planlaşdırma | Saat |
|---|---|
| Qeyri-üzvi və üzvi maddələr | 1 |
| Üzvi maddədən canlıya | 1 |
| İnsan – təbiətin ali varlığı | 1 |
| KSQ | 1 |
| **Təhlükəsiz həyat** | |
| Sağlamlığın şərtləri | 1 |
| Gigiyena sağlamlığın şərtidir | 1 |
| Yoluxucu xəstəliklərdən qorunma yolları | 1 |
| Təhlükəsizliyimizin təmin olunması | 1 |
| KSQ | 1 |
| Təbiətdəki təhlükəli hadisələrdən qorunaq | 2 |
| Texnogen mənşəli qəzalardan qorunaq | 1 |
| Yol nişanlarına diqqət edək | 2 |
| KSQ | 1 |



LAYİHƏ

# FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞDIRILMASI CƏDVƏLİ

Hörmətli müəllimlər, gündəlik dərs planını hazırlayarkən, ilk olaraq, öz işinizə mövzunun, standartın, məqsədin, iş forması və iş üsulunun, inteqrasiya imkanlarının, resursların müəyyənləşdirilməsi ilə başlayın. Alt standartlar təlim məqsədlərinin düzgün müəyyən edilməsində mühüm rol oynayır. Beləliklə, standart seçilir, ona uyğun mövzu, sonra isə həm mövzuya, həm də standarta uyğun təlim məqsədləri müəyyənləşdirilir.

Aşağıdakı cədvəli təqdim etməkdə məqsədimiz sizə həm mövzular üzrə hansı standartların reallaşdırılacağı, həm də reallaşdırılacaq standartların inteqrasiya imkanları barədə məlumat verməkdir. Lakin bildiyiniz kimi, hər bir müəllim planlaşdırma aparmaqda sərbəstdir. Yəni siz mövzunun tədrisini planlaşdırarkən müəllif tərəfindən təklif olunan standartlar qrupuna standart əlavə etməklə yanaşı, əlavə fənlərarası inteqrasiya imkanlarını müəyyən edə bilərsiniz.

| | Mövzular | Standart | İnteqrasiya |
|---|---|---|---|
| | **Mənim mənəvi aləmim** | | |
| 1 | Ünsiyyət mədəniyyəti | 3.1.1; 3.2.1. | Ədəb.: 1.2.2.;<br>Az.d.: 1.2.4. |
| 2 | Davranış normaları | 3.2.1.; 4.1.1. | Tex.: 3.1.1. |
| 3 | Ailə və Vətən qarşısında mənəvi borcumuz | 3.2.2. | Az.t.: 4.1.2. |
| 4 | Dini ibadətlər və mərasimlər | 3.3.1 | Az.d.: 1.1.2.;<br>Az.t.: 5.1.1. |
| | **Dövlətimə arxalanıram** | | |
| 5 | Dövlətdə idarəçilik | 2.1.1. | Az.t.: 3.1.1.;<br>Üm.t.: 3.1.1. |
| 6 | Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları | 2.1.2. | Az.t.: 3.1.1.;<br>Üm.t.: 3.1.1.; 3.1.2. |
| 7 | Hüquqlarımızın qorunması | 2.2.1; 2.2.2. | İnf.: 1.2.3.; Az.t.: 3.1.1. |
| 8 | İqtisadi inkişaf | 2.3.1. | C.: 3.2.1. |

LAYİHƏ

| | Mövzular | Standart | İnteqrasiya |
|---|---|---|---|
| **Cansızdan canlıya** | | | |
| 9 | Maddələrin tərkibi və xassələri | 1.1.1. | Fiz.: 3.1.2. |
| 10 | Elementlər | 1.1.1. | B.: 1.1.2. |
| 11 | Bir maddədən yeni maddə alına bilərmi? | 1.1.1. | Fiz.: 3.1.2. |
| 12 | Saf maddələr və qarışıqlar | 1.1.1. | Fiz.: 3.1.2. |
| 13 | Qeyri-üzvi və üzvi maddələr | 1.1.1. | B.: 1.1.2. |
| 14 | Üzvi maddədən canlıya | 1.2.1. | B.: 1.1.2.; 1.1.3. |
| 15 | İnsan – təbiətin ali varlığı | 1.2.1. | B.: 3.1.2.; 4.1.1.; 4.2.1. |
| **Təhlükəsiz həyat** | | | |
| 16 | Sağlamlığın şərtləri | 4.1.1. | B.: 3.2.1.; 2.1.2. |
| 17 | Gigiyena sağlamlığın şərtidir | 4.1.1. | B.: 3.2.1. |
| 18 | Yoluxucu xəstəliklərdən qorunma yolları | 4.1.1. | B.: 3.2.1.; 4.1.1. |
| 19 | Təhlükəsizliyin təmin olunması | 4.2.1; 4.3.1 | Az.d.: 2.2.1. |
| 20 | Təbiətdəki təhlükəli hadisələrdən qorunaq | 4.3.1. | C.: 2.1.1. |
| 21 | Texnogen mənşəli qəzalardan qorunaq | 4.3.1. | İnf.: 3.3.1. |
| 22 | Yol nişanlarına diqqət edək | 4.2.2. | Az.d.: 2.2.1. |

*Az.d. – Azərbaycan dili, Ədəb. – Ədəbiyyat, Riy. – Riyaziyyat, İnf. – İnformatika, Tex. – Texnologiya, T.i. – Təsviri incəsənət, F.t. – Fiziki tərbiyə, Az.t. – Azərbaycan tarixi, Üm.t. – Ümumi tarix, C. – Coğrafiya, B. – Biologiya, Fiz. – Fizika*

LAYİHƏ

## HƏYAT BİLGİSİ FƏNNİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN TƏLİM FORMALARI VƏ ÜSULLARI

Təlim formaları (kollektivlə iş, qruplarla iş, cütlərlə iş və fərdi iş) dərsin məqsədinə uyğun olaraq seçilir və şagirdlərin fəaliyyətləri bu forma üzərində qurulur. Bir dərsdə bir neçə təlim formasından istifadə etmək mümkündür.

***Kollektivlə iş*** zamanı kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur.

***Qruplarla iş***. Müəyyən problemi həll etmək üçün qruplar təşkil olunur. Bu zaman problemi şagirdlərlə müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və əməkdaşlıq bacarıqları inkişaf etdirilir.

***Cütlərlə iş.*** Bu təlim forması şagirdlərdə daha yaxından əməkdaşlıq etmək və ünsiyyət qurmaq, məsuliyyəti bölüşmək imkanı yaradır. Lakin bu əməkdaşlığın əhatə dairəsi çox azdır.

***Fərdi iş***. Fərdi iş zamanı şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaranır. Müəllim şagirdin fəaliyyətini tam obyektiv qiymətləndirə bilir.

Nəzərə almaq lazımdır ki, hər bir təlim formasının üstün cəhətləri olduğu kimi, əks tərəfləri də vardır. Elə buna görə də təlim formalarından istifadə edərkən dərsin məqsədləri nəzərə alınmalı, eyni zamanda, şagirdlər üçün hazırlanmış tapşırıqlar məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafına yönəldilməlidir.

Qrup işinin təşkili:

Qrup işinin təşkilində əsas məsələ onun tərkibinin formalaşdırılmasıdır. Bu, müxtəlif üsullarla aparıla bilər. Qrup işinin təşkili zamanı:

1. Qrupun tapşırığını müəyyənləşdirin;
2. Materialları əvvəlcədən hazırlayın, qiymətləndirmə meyarlarını əlavə edin;
3. Qrupun sayını və qrupa bölünmə üsullarını müəyyənləşdirin;
4. Hər qrupun tapşırığı ilə bağlı özünüzdə qeydiyyat aparın;
5. Qrup işinə ayrılan vaxtı müəyyənləşdirin;
6. Qrup işi üçün sinif otağını hazırlayın.

VI sinif şagirdlərin yeniyetməlik dövrünə təsadüf edir. Yeniyetmələrin problemlərin həllinin müstəqil axtarışı və təlim prosesində tədqiqatçılığa meyilliyini, yeni biliklərə yiyələnmək, yaradıcı düşünmə qabiliyyətlərinin inkişafını nəzərə alaraq fəal təlim üsullarından istifadə məqsədəuyğun hesab olunur. Eyni zamanda, Həyat bilgisi fənninin məzmununu təşkil edən standartların reallaşdırılması da fəal dərsin qurulmasının vacibliyini tələb edir.

Dünya təcrübəsində fəal təlim üsulları onlarladır. Həyat bilgisi fənninin tədrisində, əsasən, **klaster, beyin həmləsi, ziqzaq, müzakirə, karusel, BİBÖ, anlayışın çıxarılması, Venn diaqramı, cədvəllərlə iş, söz assosiasiyası və s.** təlim üsullarından geniş istifadə etmək olar.

LAYİHƏ

**Beyin həmləsi**

Bu üsul “əqli hücum” da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirir.

Bu üsuldan, demək olar ki, bütün mövzuların tədrisində istifadə etmək mümkündür.

**BİBÖ – Bilirəm/İstəyirəm bilim/Öyrəndim**

BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır:

1. Problem müəllim tərəfindən elan edilir.
2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl çəkir və aşağıdakı bölmələri qeyd edir: – Bilirəm/İstəyirəm bilim/Öyrəndim
3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur.
4. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır.
5. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.

Məsələn: “Sağlamlığın şərtləri” mövzusunu tədris edərkən müəllim BİBÖ üsulundan istifadə edə bilər. Lakin onu da unutmayaq ki, bu üsul dərsin motivasiya mərhələsindən başlayaraq istifadə olunmalıdır.

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| Sağlamlığın üç aspekti var: fiziki, emosional və mənəvi sağlamlıq. | Zərərli vərdişlərdən necə uzaq olmaq olar?<br>Hansı gigiyena qaydalarına əməl etməliyəm?<br>Yoluxucu xəstəliklərdən qorunma yolları hansılardır? | |

LAYİHƏ

**Klaster (şaxələndirmə)**

Müəllim tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir, onun mərkəzində yazılmış anlayışla bağlı şagirdlərə söz və ya ifadələr söyləmək tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlərlə – xətlərlə birləşdirilir. Vaxt bitənə qədər mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır. Məsələn: "Hüquqlarımızın qorunması" mövzusunun tədrisi zamanı müəllim motivasiyanı bu üsuldan istifadə etməklə qoya bilər.




**Anlayışın çıxarılması**

Bu üsul oyun-tapmaca formasında keçirilir və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədə dairəvi kart asır, onun arxasında şagirdlərdən tələb olunan anlayışı yazır. Kartın yazı olmayan tərəfini şagirdlərə göstərir və gizlədilmiş anlayışların xüsusiyyətlərinə aid 2-3 yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar.

Əgər şagirdlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni xüsusiyyətlər sadalayır.

Şagirdlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacanın tapılıb-tapılmamasını hamıya çatdırır və kartoçkalarda yazılan sözləri açıqlayır. Məsələn:




LAYİHƏ

**Müzakirə**

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid "Nə baş verdi?, Nə üçün baş verdi?, Bu başqa cür ola bilərdimi və necə?, Siz bu vəziyyətdə nə edərdiniz?, Sizin fikrinizcə, həmin obraz nə hiss etdi?, Siz bu şəraitdə nə hiss edərdiniz?, Bu, düz idimi?, Nə üçün?" kimi suallardan istifadə olunur. Ünsiyyət mədəniyyəti, davranış normaları və s. mövzuların tədrisində bu üsuldan istifadə edilə bilər.

**Venn diaqramı**




Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

***Venn diaqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır:***

1. Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir;
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanır);
3. I və III dairədə müqayisə olunacaq obyektlər qeyd olunur;
4. Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır);
5. Müqayisə olunan obyektlər təsvir edilir (fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur);
6. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.



LAYİHƏ

Məsələn: Məişətdə və ictimai yerlərdə davranış qaydalarını müqayisə etmək üçün Venn diaqramından istifadə oluna bilər.




**Ziqzaq.** Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır.

Şagirdlər dörd nəfərlik qruplara bölünürlər (əsas qrup). Qruplardakı şagirdlər yenidən nömrələnirlər. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır.

Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir.

Ekspert qrupları onlara verilən hissəni oxumalı, məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır.

Müəllim informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün şagirdlərə suallarla müraciət edə bilər. Məsələn: "Sağlamlığın şərtləri", "Yoluxucu xəstəliklərdən qorunma yolları", "Yol nişanlarına diqqət edək", "Təbiətdəki təhlükəli hadisələrdən qorunaq" və s. mövzuların tədrisində bu üsuldan istifadə etmək daha səmərəli ola bilər.

**Karusel**. Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. Karusel kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir. Məsələn: "Ünsiyyət mədəniyyəti" mövzusunun tədrisi zamanı müəllim karusel üsulundan istifadə etməklə aşağıdakı suallar yazılmış vərəqlər şagirdlərə paylaya bilər:

- Ünsiyyətin hansı növləri var.
- Yoldaşlarla mübahisəyə nələr səbəb ola bilər?
- Mübahisə yaranarsa, nə etməli?
- Ünsiyyətin səmərəli olması üçün hansı qaydalara əməl olunmalıdır?

LAYİHƏ

**Təqdimat**. Fəal (interaktiv) təlim metodları ilə aparılan dərslərin mühüm elementlərindən biri olan təqdimat şagirdin tədqiqat fəaliyyətinin göstəricisi sayılmalıdır. Bu metod şagirdlərə imkan verir ki, o, tədqiqatın nəticəsini müxtəlif yollarla təqdim edə bilsin, öz fikirlərini dəqiq ifadə etmək, mükəmməl nəticə çıxarmaq bacarığına yiyələnsin. Təqdimata hazırlaşan şagirdlər qrup halında işləyəndə ünsiyyət mədəniyyətinə yiyələnir və fikirlərini bölüşməyi bacarırlar. Belə olduqda onların hazırladıqları təqdimat dəqiq olur, yaxşı tərtibatı ilə diqqəti cəlb edir.

Təqdimata hazırlaşan şagirdlər onu hansı formada keçirmək barədə qaydalara yiyələnirlər. Müəllim təqdimatın növü və onun keçirilməsi qaydaları barədə şagirdləri təlimatlandırmalıdır. Bu təlimatlara əməl edən şagird vaxtdan səmərəli istifadəyə, fikrini daha dəqiq və yığcam şəkildə ifadə etməyə əvvəlcədən hazır olur. Təqdimatı keçirərkən ona şərh verməyi bacarır. Təqdimat müzakirə olunur və meyar cədvəli əsasında qiymətləndirilir.

Təqdimat fərdi və ya qrup şəklində həyata keçirilə bilər.

2.2.2. Məzmun standartlarının reallaşdırılması məqsədilə şagirdlər təqdimat hazırlamalıdırlar.

**İNSERT.** Bu üsul dərslikdəki mətnin aktiv fəaliyyətlə, yəni şagirdin öz münasibətini bildirərək oxunmasıdır. Şagird mövzudakı fikirlərə münasibətini qəbul edilmiş işarələrlə ("✓" – bu məlumat mənə tanış idi, "–" – bu məlumat mənim əvvəllər bildiyimi inkar edir, "+" – bu məlumat mənim üçün yenidir, "?" – bu məsələyə dair əlavə məlumat almaq istərdim) bildirir. Dərslikdəki mətn oxunduqdan sonra ümumiləşdirmələr aparılır və qeyd olunur.

İlk növbədə, məlum biliklər təsdiq edilir, yeni bilik və informasiyaları öyrənmək üçün gələcək fəaliyyət planlaşdırılır. Bu üsuldan istənilən mövzunun tədrisində istifadə etmək mümkündür.

Bu üsul fərdi işləməyi sevən şagirdlər üçün səmərəlidir. II və IV sütunu ilə bağlı suallar mütləq olaraq müəllim tərəfindən dəqiqləşdirilməlidir.

| "✓" | "–" | "+" | "?" |
|---|---|---|---|
| | | | |

İNSERT üsulundan "Hüquqlarımızın qorunması", "Yoluxucu xəstəliklərdən qorunma yolları" və s. mövzuların tədrisində istifadə oluna bilər.



LAYİHƏ

**Problemli vəziyyət.** Bu üsul vasitəsilə tənqidi təfəkkür, təhliletmə və ümumiləşdirmə vərdişləri inkişaf etdirilir.

Müəllim əvvəlcədən problemli vəziyyət və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünürlər. Problemli vəziyyət əks olunmuş iş vərəqləri uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır. Bu üsuldan dərslikdəki bir sıra mövzuların (Ünsiyyət mədəniyyəti, Davranış normaları, Yoluxucu xəst. qorunma yolları və s.) tədrisində istifadə oluna bilər.

**Mühazirə.** Mühazirə məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa mühazirələr 10-15 dəqiqə ərzində aparılır. Mühazirə ilə bağlı aşağıdakı məsələlərə nəzər yetirmək məqsədəmüvafiqdir:

– mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək;
– plan tərtib etmək və onu şagirdlərə paylamaq (və ya lövhədə yazmaq);
– əyani və texniki vasitələrdən istifadə etmək.

Müəllim mühazirə prosesini verbal (suallar verməklə) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) formada tənzimləməlidir.

**Təbii üsulu seçilən zaman nəzərə alınan meyarlar:**

- Seçilmiş üsulun tətbiqində şagirdlərin təcrübələrinin olub-olmaması;
- Fənnin məqsədinin unudulmaması;
- Seçilmiş üsulun təlimin forması ilə vəhdət təşkil etməsi;
- Dərsdə veriləcək biliklərin həcmi;
- Dərsdə neçə şagirdin iştirak etməsi;
- Üsulun tətbiqinə sərf olunacaq vaxtı;
- Məşğələ keçiriləcək kabinetin şəraiti;
- Zəruri texniki avadanlıq və təlim materiallarının təminatı;
- Üsulun dərsin hansı mərhələsində tətbiq olunacağı;
- Təlim nəticəsinə nail olunub-olunmayacağını.

LAYİHƏ

# İLLİK PLANLAŞDIRMANIN APARILMASINA DAİR TÖVSİYƏLƏR

Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün hər bir müəllimin özünəməxsus fəaliyyət istiqamətidir.

Bildiyimiz kimi, hazırkı kurikulumlar siz müəllimlərə illik planlaşdırma aparmaqda müəyyən sərbəstlik verir. Əvvəldə də qeyd etdiyimiz kimi, məhz hər bir məktəbin yerləşdiyi regiondan, onun infrastrukturundan, maddi-texniki bazasından və s. asılı olaraq Həyat bilgisi fənn kurikulumunda nəzərdə tutulmuş məzmun standartları müxtəlif cür reallaşdırıla bilər. Planlaşdırma aparılarkən yuxarıda qeyd olunanlarla yanaşı, şagirdlərin fərdi xüsusiyyətlərinin, öyrənmə tərzlərinin də nəzərə alınması olduqca vacib şərtdir. Eyni bir regionda, eyni bir məktəbdə, lakin ayrı-ayrı 6-cı siniflərdə Həyat bilgisi fənnini tədris edən müəllimlərin illik planlaşdırmalarının təsnifatı müxtəlif ola bilər. Lakin bu planlaşdırmanı kor-koranə aparmaq qeyri-mümkündür.

Bəs perspektiv planlaşdırmanı aparmaq üçün müəllimdə hansı bacarıqların olması zəruridir?

Perspektiv planlaşdırma aparmaq məqsədilə müəllim üçün zəruri hesab edilən bacarıqlar aşağıdakılardır:

1. Məzmun standartlarına əsasən dərslikdəki tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparmaq.
2. Tədris vahidlərinin və mövzuların ardıcıllığını müəyyənləşdirmək.
3. İnteqrasiya imkanlarını müəyyən etmək.
4. Əlavə resurslar seçmək.
5. Mövzulara görə məqsədyönlü vaxt bölgüsü aparmaq.
6. Mövzuya görə nailiyyətlərin qiymətləndirilməsinin növlərini müəyyənləşdirmək.

Sizə tövsiyə olaraq 6-cı sinif Həyat bilgisi fənni üzrə təxmini illik planlaşdırma müəllim üçün metodik vəsaitə daxil edilmişdir. Bu illik plan, adından da göründüyü kimi, təxminidir. Yuxarıdakı bacarıqlarınız əsasında illik planlaşmada müvafiq dəyişikliklər edə bilərsiniz.

LAYİHƏ

# HƏYAT BİLGİSİ FƏNNİ ÜZRƏ TƏXMİNİ İLLİK PLANLAŞDIRMA

| Standartlar | Tədris vahidi | Mövzular | İnteqrasiya | Resurslar | Saat |
|---|---|---|---|---|---|
| 3.1.1.; 3.2.1 | Mənim mənəvi aləmim | Ünsiyyət mədəniyyəti | Az.d.: 1.2.4.;<br>Ədəb.: 1.2.2. | Dərslik, iş vərəqləri, şəkillər, elektron təqdimat, paylama materialı, https://youtu.be/P1900TBJ7q8 | 2 |
| 3.2.1.; 4.1.1. | | Davranış normaları | Tex.: 3.1.1. | İş vərəqləri, şəkillər, dərslik, “Ailədə və cəmiyyətdə əxlaq və davranış qaydaları” kitabı, elektron təqdimat, https://youtu.be/X2N7ztow24g | 1 |
| 3.2.2. | | Ailə və Vətən qarşısında mənəvi borcumuz | Az.t.: 4.1.2. | Dərslik, iş vərəqləri, şəkillər, paylama materialları, https://youtu.be/th8Mz9NİzFE | 2 |
| 3.3.1. | | Dini ibadətlər və mərasimlər | Az.d.: 1.1.2.;<br>Az.t.: 5.1.1. | Dini mərasimlərə aid şəkillər, dərslik, elektron təqdimat, Ayna Uşaq Ensiklopediyası | 1 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | | **1** |
| 2.1.1. | Dövlətimə arxalanıram | Dövlətdə idarəçilik | Az.t.: 3.1.1.;<br>Üm.t.: 3.1.1. | Dərslik, dövlət idarəçiliyinə aid çəkilmiş sxem, elektron təqdimat, paylama materialı | 1 |
| 2.1.2. | | Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları | Üm.t.: 3.1.1.;<br>Az.t.: 3.1.1., 3.1.2. | Dərslik, dövlətin funksiyalarına aid paylama materialı, elektron təqdimat | 1 |
| 2.2.1.; 2.2.2. | | Hüquqlarımızın qorunması | Az.t.: 3.1.1.;<br>İnf.: 1.2.3 | Hüquqları qoruyan orqanların fəaliyyətinə dair paylama materialı, elektron təqdimat | 2 |
| 2.3.1. | | İqtisadi inkişaf | C.: 3.2.1. | Dərslik, elektron təqdimat, flipçart | 1 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | | **1** |

LAYİHƏ

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.1.1. | Cansızdan canlıya | Maddələrin tərkibi və xassələri | Fiz.: 3.1.2. | Dərslik, iş vərəqi, maddələrin tərkibinə aid elektron təqdimat, qənd, çəkic, su, duz, qayçı, rəngli kristal, çəki daşları, eyni həcmli müxtəlif qablar. | 2 |
| 1.1.1. | | Elementlər | B.: 1.1.2. | Paylama materialı, flipçart, müxtəlif metallar və qeyri-metallar, elektron təqdimat | 1 |
| 1.1.1. | | Bir maddədən yeni maddə alına bilərmi? | Fiz.: 3.1.2. | Maddələrə aid elektron təqdimat, kartof, yod, qənd, sınaq şüşəsi, kağız, dərslik | 1 |
| | | **Kiçik summativ qiymətləndirmə** | | | 1 |
| 1.1.1. | | Saf maddələr və qarışıqlar | Fiz.: 3.1.2. | Dərslik, iş vərəqi, marker, maddələrin quruluşuna aid şəkillər, mismar, torpaq, dəmir tozu, xörək duzu, qum, kükürd tozu, maqnit, sınaq şüşəsi və digər laboratoriya avadanlıqları, elektron təqdimat | 1 |
| 1.1.1.. | | Qeyri-üzvi və üzvi maddələr | B.: 1.1.2. | Dərslik, iş vərəqi, marker, maddələrin quruluşuna aid şəkillər, üzərinə xlorid turşusu tökülmüş sümük, yandırılmış sümük, spirt lampası və s. | 1 |
| 1.2.1. | | Üzvi maddədən canlıya | B.: 1.1.2., 1.1.3 | Dərslik, iş vərəqi, marker, maddələrin quruluşuna aid şəkillər, hüceyrənin quruluşunu əks etdirən tablo və yaxud elektron təqdimat və s. | 1 |
| 1.2.1. | | İnsan – təbiətin ali varlığı | B.: 3.1.2., 4.1.1., 4.2.1. | Təbiət hadisələrinə aid elektron təqdimat, “Azərbaycanın heyvanlar aləmi” kitabı, “Yaşıl paket” CD, şəkillər, dərslik, iş vərəqi və s. | 1 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | | **1** |

LAYİHƏ

| | | | | | |
|---|---|---|---|---|---|
| 4.1.1. | **Təhlükəsiz həyat** | Sağlamlığın şərtləri | B.: 3.2.1., 2.1.2. | Sağlamlığa dair şəkillər, elektron təqdimat, paylama materialı və s., https://youtu.be/hD1iveAJ3Nk | 1 |
| 4.1.1. | | Gigiyena sağlamlığın şərtidir | B.: 3.2.1. | Dərslik, elektron təqdimat, https://youtu.be/m3RZXXQ9OwE | 1 |
| 4.1.1. | | Yoluxucu xəstəliklərdən qorunma yolları | B.: 3.2.1., 4.1.1. | Elektron təqdimat, paylama materialı və s. | 1 |
| 4.2.1 4.3.1. | | Təhlükəsizliyimizin təmin olunması | Az.d.: 2.2.1. | Dərslik, təhlükəsizlik qaydalarına əməl edilmədikdə yaranan fəsadlara dair videogörüntü, iş vərəqi, flipçart və s. | 1 |
| | | **Kiçik summativ qiymətləndirmə** | | | **1** |
| 4.3.1. | | Təbiətdəki təhlükəli hadisələrdən qorunaq | C.: 2.1.1. | Sel, daşqın və sunamilərə aid görüntü, iş vərəqi, dərslik, “Özünə və başqalarına kömək etməyi bacar” kitabçası, elektron təqdimat https://youtu.be/Dz9_vH1UrMI | 2 |
| 4.3.1. | | Texnogen mənşəli qəzalardan qorunaq | İnf.: 3.3.1. | Uçmuş ev, dağılmış yol və s. bu kimi hadisələrə aid şəkillər, paylama materialı, marker, iş vərəqi, https://youtu.be/33oWOF5g7LM? https://youtu.be/-k3vllySE9k | 1 |
| 4.2.2. | | Yol nişanlarına diqqət edək | Az.d.: 2.2.1. | Yol nişanlarına aid şəkillər, onların əlamətlərini göstərən təqdimat, dərslik, iş vərəqi, https://youtu.be/M9NjCutLFjo | 2 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | | **1** |

LAYİHƏ

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR TÖVSİYƏLƏR

Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn və onu idarə edən vacib amildir. Şagird nailiyyətlərinin inkişafına xidmət edən qiymətləndirilmə müəllimdən yaradıcılıq tələb edən prosesdir.

Ümumtəhsil məktəblərində tətbiq olunan fənn kurikulumları ilə əlaqədar olaraq müəllimlərdə müasir qiymətləndirmənin necə aparılması, hansı üsul və vasitələrə üstünlük verilməsi sualları yaranır. Təlim prosesinin ayrılmaz hissəsi olan məktəbdaxili qiymətləndirmə diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (fəaliyyətin qiymətləndirilməsi), summativ (kiçik, böyük və yekun) qiymətləndirmədən ibarətdir. Qiymətləndirmə növləri şagirdləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə edilməsinə yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edir.

*Diaqnostik qiymətləndirmə* hər bir fənn müəlliminin təlim məqsədləri və təlim strategiyalarında çevik dəyişikliklər aparmasına imkan yaradır. Belə ki hər bir müəllim keyfiyyətli dərsə yiyələnmək üçün başlanğıcda özünə "Şagirdlərin bilik və bacarıqlarının səviyyəsi necədir", "İl ərzində və yaxud da aşağı sinifdə tədris edilmiş materialı necə mənimsəyiblər", "Əldə olunmuş bilikləri tətbiq edə bilirlərmi", "Sinifdəki şagirdlərlə işə haradan başlanılmalıdır", "Şagirdlərin müəyyən bilik və bacarıqlara yiyələnmələri üçün hansı məsələlərə xüsusi diqqət yetirilməlidir" kimi suallar verməlidir. Məhz bu suallara cavab tapmaq üçün müəllim şagirdin, müvafiq hallarda qrup və ya sinfin hazırkı vəziyyətinə qiymət verməlidir. Bu baxımdan diaqnostik qiymətləndirmə təlimin hər hansı bir mərhələsində – təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqlarını müəyyən edir. Eyni zamanda, şagird bir ümumtəhsil məktəbindən digərinə gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək, öyrənilmiş materialın təkrarına vaxt itirməmək məqsədilə aparılır.

Bu qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri məlumatlandırılır.

Məktəbdaxili qiymətləndirmənin digər növü olan ***formativ qiymətləndirmə*** qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim belə monitorinq vasitəsilə tədris pro-

LAYİHƏ

sesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda, uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək onlara əlavə köməklik göstərir. Bu qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standartlarından irəli gələn təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq aparılır. Meyarlar 4 səviyyədə (zəruri hallarda 3-5 səviyyə də ola bilər) müəyyənləşdirilə bilər. Formativ qiymətləndirmənin nəticələri sinif jurnalında qeyd olunmur. Bu nəticələr şagirdin məktəbli kitabçasında (meyarlar şəklində) və müəllimin qeyd kitabçasında öz əksini tapır.

Bir məzmun standartı dərslikdəki bir neçə mövzuda reallaşdığına görə həmin standartlara əsasən müəyyən olunmuş qiymətləndirmə meyarları növbəti müvafiq dərslərdə də istifadə edilir.

Məsələn:

***Alt standart:*** 2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti ilə bağlı topladığı materialları təqdim edir.

***Təlim nəticəsi:*** Hüquqları qoruyan qurumların fəaliyyəti haqqında topladığı məlumatları təqdim edir.

***Qiymətləndirmə meyarı:***

1. Təqdimetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Qurumlar haqqında topladığı məlumatı təqdim etməkdə çətinlik çəkir. | Topladığı məlumatı təqdim edərkən səhvlərə yol verir. | Topladığı məlumatı təqdim edir, nitqi rabitəli deyil. | Topladığı məlumatı faktlara əsaslanmaqla sərbəst və sistemli təqdim edir. |

Formativ qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz:

| Üsullar | Vasitələr |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |



LAYİHƏ

| Üsullar | Vasitələr |
|---|---|
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

**Şagirdlər təqdimatı qrup şəklində hazırladıqları halda onların fəaliyyəti aşağıdakı meyarlar əsasında qiymətləndirilə bilər.**

| Meyarlar | Hə | Yox |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatın düzgünlüyü | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Məlumatın dəqiqliyi | | |
| Təqdimatın hazırlanmasında sistemliliyin gözlənilməsi | | |

**Özünüqiymətləndirmə**

Bu qiymətləndirmə fərdi qiymətləndirmədir. Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |



LAYİHƏ

**Cütlərlə iş zamanı qiymətləndirmə**

Bu qiymətləndirmədən cütlərlə iş zamanı istifadə etmək olar. Dərsin sonunda cütlərə aşağıda göstərilən cədvəl paylanılır. Bu cədvəldən istifadə etməklə hər bir şagird həm özünün, həm də yoldaşının fəaliyyətini qiymətləndirə bilər.

| Cütlərdə işləyən şagirdlərin adı | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıq etmə | Qaydalara əməl olunması | Tapşırığın icrası zamanı müzakirəetmə | Ümumi rəyə gəlmə |
|---|---|---|---|---|---|
| Nəzrin | | | | | |
| Səbinə | | | | | |

**Qrup işlərinin qiymətləndirilməsi**

Qruplarla işin qiymətləndirilməsi üçün meyar cədvəli hazırlanır. Qrupların fəaliyyətini aşağıdakı meyarlara əsasən qiymətləndirmək olar.

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Tapşırığın tam və düzgün yerinə yetirilməsi | | | | |
| Tərtibat | | | | |
| Təqdimetmə | | | | |
| Əməkdaşlıq | | | | |
| Yekun | | | | |

Yekun (summativ) qiymətləndirmə standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə il ərzində bəhs və ya bölmələrə, həm də tədris ilinin sonunda qiymətləndirmə standartlarına əsasən həyata keçirilir. Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Summativ qiymətləndirmənin aparılması üçün yoxlama yazı işi, layihə, şifahi sorğu, test, tapşırıqvermə, yaradıcılıq və əl işləri üsullarından istifadə oluna bilər.

LAYİHƏ

Qiymətləndirmə vasitələri hazırlanarkən aşağıdakılar nəzərə alınır, suallar çətinlik səviyyəsinə görə belə tələb edilir:

- 1-ci səviyyə üzrə suallar – 20%;
- 2-ci səviyyə üzrə suallar – 30%;
- 3-cü səviyyə üzrə suallar – 30%;
- 4-cü səviyyə üzrə suallar – 20%.

Əgər 30 sual hazırlanarsa, bu sualların 20%-i 1-ci səviyyəli, 30%-i 2-ci səviyyəli, 30%-i 3-cü səviyyəli, 20%-i isə 4-cü səviyyəli suallar olmalıdır.

Təhsildə aparılan səmərəli islahatlar, yeniliklər məktəbdaxili qiymətləndirmənin tətbiqində müəyyən dəyişikliklərə səbəb olmuşdur.

Edilmiş bir sıra dəyişikliklər Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq olunmuşdur. Belə ki qərara əsasən:

- Kiçik summativ qiymətləndirmə II–XI siniflərdə bütün fənlər üzrə hər yarımildə 3 dəfədən az, 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Hər fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur.
- Hər bir fənn üzrə kiçik summativ qiymətləndirmə həmin fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.
- Böyük summativ qiymətləndirmə ümumtəhsil müəssisəsinin rəhbərliyi tərəfindən hər yarımilin sonunda aşağıda sadalanan fənlər üzrə aparılır:
  – ümumtəhsil müəssisələrinin IV, IX və XI siniflərində bütün fənlər üzrə;
  – ümumtəhsil müəssisələrinin V–VIII siniflərində ümumi orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri üzrə;
  – lisey və gimnaziyaların V–VIII siniflərində ümumi orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri ilə yanaşı, müəssisənin Pedaqoji Şurasının qərarı ilə müəyyənləşdirilmiş maksimum 3 fənn üzrə;
- Hər bir fənn üzrə böyük summativ qiymətləndirmə ibtidai təhsil səviyyəsində 45, ümumi orta və tam orta təhsil səviyyəsində 45–90 dəqiqə ərzində aparılır.
- Kiçik və böyük summativ qiymətləndirmələr 100 ballıq şkala ilə ölçülür.
- Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri (suallar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13

LAYİHƏ

yanvar 2009-cu il tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri nəzərə alınmaqla hazırlanır. Suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi, 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

– 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
– 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

- Üzrlü (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) səbəbdən kiçik summativ qiymətləndirmənin hər hansı birində iştirak etməyən təhsilalanın kiçik summativ qiymətləndirmədə iştirak etməməsi yarımillik balların hesablanmasında nəzərə alınmır. Təhsilalanın iştirak etmədiyi kiçik summativ qiymətləndirmə növbəti kiçik summativ qiymətləndirməyədək təşkil edilir.
- Üzrsüz səbəbdən kiçik summativ qiymətləndirmədə iştirak etməyən təhsilalanların həmin qiymətləndirmə üzrə balı "0" qəbul edilir və yarımillik balların hesablanmasında nəzərə alınır.
- Summativ qiymətləndirmədə iştirak etməyən təhsilalanlar üçün sinifdə istifadə olunan eyni səviyyəli yeni qiymətləndirmə vasitələri (test, imla, inşa, ifadə, çalışma) hazırlanır.
- Təhsilalanın summativ qiymətləndirmədə bu Qaydanın 4.13.-cü bəndi nəzərə alınmaqla topladığı balların 2, 3, 4, 5 qiymətlərinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir:

30-dək (daxil olmaqla) olan ballar "2" qiyməti ilə;
30-dan 60-dək (daxil olmaqla) olan ballar "3" qiyməti ilə;
60-dan 80-dək (daxil olmaqla) olan ballar "4" qiyməti ilə;
80-dən 100-dək (daxil olmaqla) olan ballar "5" qiyməti ilə.

- Təhsilalanın summativ qiymətləndirmədə topladığı ballar və onların uyğunlaşdırıldığı qiymət summativ qiymətləndirmənin aparıldığı tarixdə sinif jurnalında və məktəbli kitabçasında yazılır.

LAYİHƏ

- Böyük summativ qiymətləndirmə aparılmayan fənlər üzrə yarımillik bal kiçik summativ qiymətləndirmələrdə toplanmış ballar əsasında aşağıdakı kimi hesablanır:

Y – təhsilalanın yarımillik üzrə balını;

ksq1+ ksq2+…+ ksqn – hər kiçik summativ qiymətləndirmədə toplanmış balların miqdarını;

Y= (ksq1+ ksq2+…+ ksqn ) / n

n – kiçik summativ qiymətləndirmələrin sayını bildirir.

- Böyük summativ qiymətləndirmə aparılan fənlər üzrə yarımillik bal kiçik və böyük summativ qiymətləndirmələrdə toplanılan ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = \frac{ksq_1 + ksq_2 + ... + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

BSQ – hər yarımillik üzrə aparılan böyük summativ qiymətləndirmədə toplanmış balların miqdarı.

Şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsinə dair vasitələrin hazırlanması zamanı aşağıdakı amillərin nəzərə alınması məqsədəuyğun hesab edilir:

– yarımil və ya il ərzində reallaşdırılmış məzmun standartlarında nəzərdə tutulmuş bütün bacarıqların yoxlanılmasına imkan yaradılması;
– qiymətləndirmə səviyyələrinin nəzərə alınması;
– açıq sualların konkret cavabının olması;
– bir neçə düzgün cavabın seçilməsi tələb olunduğu halda, bu cavabların qruplaşdırılması;
– hazırlanmış tapşırıqların nəzərdə tutulan vaxt çərçivəsində icrasının mümkünlüyü;
– nəticələrin sxem və şəkillərlə təqdim olunmasına imkan yaradılması;
– tapşırığın şərtinin dəqiqliyi;
– nəticələrin konkret şəkildə göstərilməsi;
– məlumatların (məsələn, tarix, sinif, şagirdlərin adı və s.) qeyd olunmasına imkan yaradılması və s.



LAYİHƏ

## MÖVZULARIN GÜNDƏLİK PLANLAŞDIRILMASINA DAİR TÖVSİYƏLƏR

Tədris prosesində fəal təlim üsullarından istifadə şagirdlərin təhsilə, elmə marağını artırmaqla yanaşı, onlarda əməkdaşlıq, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətlərinin formalaşmasına imkan yaradır, dərsin strukturu qarşısında müəyyən tələblər qoyur.

Gündəlik dərs planını hazırlayarkən ilk olaraq öz işinizi mövzunun, standartın, məqsədin, iş forması və iş üsulunun, inteqrasiya imkanlarının, resursların müəyyənləşdirilməsi ilə başlayın. Yuxarıda sadalananların hər birinin düzgün müəyyən edilməsində alt standartlar mühüm rol oynayır. Eyni zamanda, müasir dərsin hər bir mərhələsi alt standartın reallaşmasına yönəlməlidir. Standartları reallaşdırarkən təlimin diferensiallaşdırılması nəzərə alınmalıdır. Diferensial təlimin alt komponenti hesab olunan inklüziv təlimin əsasını hər bir şagirdə fərdi yanaşma prinsipi təşkil edir. Bu yanaşma təlim prosesində şagirdlərin inkişaf səviyyəsinə, ehtiyaclarına, maraqlarına və s. görə müəyyən edilə bilər.

Müasir dərsin strukturunu 3 hissəyə bölmək olar: giriş hissə – motivasiya, tədqiqat sualı; əsas hissə – informasiyanın mübadiləsi, informasiyanın müzakirəsi; yekun hissə – nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə və qiymətləndirmə.

Motivasiyanın yaradılmasından çox şey asılıdır. Belə ki motivasiyanın yaradılmasının yollarına rəmzi, sual verməyə həvəsləndirmə və problemin müxtəlif yollarla həlli aiddir. Hər bir motivasiya necə yaradılmasından asılı olmayaraq tədqiqat sualı ilə bitməli və aparılacaq tədqiqatın nəticələri bu sualın cavabı olmalıdır. Bu baxımdan qoyulacaq tədqiqat sualı ümumi olmaqla yanaşı, standartın, məqsədin reallaşdırılmasına xidmət etməlidir. Tədqiqatın qrup və cütlərdə icrası zamanı tərtib ediləcək iş vərəqləri və burada öz əksini tapacaq tapşırıqlar xüsusi əhəmiyyət daşıyır. Belə ki iş vərəqinin şagirdlərin tədqiqat işini təşkil edən vasitə olduğunu, kiçik qruplara verilən problem və onun həllinin nəticələrini əks etdirdiyini nəzərə alaraq aşağıdakılara diqqət etmək zəruri hesab edilir:

- Cəlbedici məzmunu və tərtibatı;
- Məqsəd və sualın aydın və konkretliyi;
- Uşaqların səviyyəsinə uyğun olması;
- Dərsin məqsədinə uyğun olması.

LAYİHƏ

Tapşırıqları hazırlamazdan öncə şagirdlərin hansı tapşırıqları daha müvəffəqiyyətlə yerinə yetirəcəklərini, hər bir konkret tapşırığın hansı düşünmə vərdişinə yönəldiyini, hansı tapşırığın yerinə yetirilməsi zamanı təhlil, tənqid və müqayisə edildiyini, tapşırıqların reallaşdırılacaq məzmun standartının tələblərini nə dərəcədə ödədiyini diqqətlə təhlil etmək məqsədəuyğundur.

**Tədrisin səmərəli olması üçün tövsiyə**

Müasir dövrdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də inkişaf vardır. Yeniliklərin qəbulu və tətbiqi, düzgün strategiya, nəticəyə gedən yolun düzgün qiymətləndirilməsi müəllimin qarşısına yeni öhdəliklər və tələblər qoyur. Müəllim birtərəfli inkişaf etmir. O, şagirdlərlə birgə daim axtarışda olduğundan özünün peşəkar inkişafı üçün müəyyən addımlar atmalı, düzgün planlaşdırmalar aparmalıdır. Bunun üçün müəllim öz üzərində çalışmalı, araşdırmalar aparmalı, öz-özünə hesabat verməlidir.

Bu hesabatlılıq üçün öncə siz daim digər müəllimlərlə əməkdaşlıq etməli, həmkarlarınızla bölüşməlisiniz.

Hədəfə çatmaq üçün:

Görəcəyiniz işləri müəyyən edin. Sizin işinizə səmərə verən amilləri qeyd edin. Özünüzün etdiyiniz yenilikləri mütəxəssis və müəllimlərlə bölüşün.

İlk növbədə, tədris etdiyiniz fənni və onun reallaşdırılması üçün seçilmiş mövzuları mükəmməl bilməyiniz vacibdir. Yaxşı bilmədiyiniz mövzu yaxşı tədris oluna bilməz. Sinifdən sinfə şagirdlərin inkişaf etməsini və bu inkişaf üçün qoyulan tələbləri müəllim mütləq bilməli və düzgün tətbiq etməlidir. Mövzuları bilməklə yanaşı, şagirdləri istiqamətləndirməyi bacarmaq da şərtdir. Nəzərdə tutulan pedaqoji yanaşmalar bütün fənlər üçün eyni dərəcədə keçərli deyildir. Hər bir fənnin öz spesifik xüsusiyyətləri vardır. Bu xüsusiyyət Həyat bilgisi fənnində də özünü büruzə verir. Riyaziyyat müəlliminin pedaqoji yanaşması Həyat bilgisi müəlliminin yanaşması ilə eyniyyət təşkil edə bilməz. Həyat bilgisində müzakirələr əsas rol oynayır. Müəllim dərsin gedişində sualları düzgün formalaşdırmağı bacarmalıdır. Şagirddən istədiyini almaq üçün ona aydın olan fikirləri səsləndirməli, verilmiş tapşırıqlar təfəkkürün növlərinə xidmət etməlidir.

Sizin peşəkarlığınız o zaman ortaya çıxar ki, düzgün tədris və təhsil mühiti yaradasınız. Yeni islahatı, yəni kurikulumu, onun qiymətləndirilməsini daha dəqiq reallaşdırmaq imkanına sahib olasınız. Özünüzü inkişaf etdirərkən şagirdlərin tələblərini, eləcə də maraqlarını nəzərə almağı unutma-



LAYİHƏ

yasınız. Müasir şagird daha çox informasiyaya malikdir. Çünki onun internetə çıxış imkanları genişdir. Daim yeni informasiya əldə edən şagird fərqli dərs görmək istəyir. Yorucu və cansıxıcı dərslər onu stimuldan salır. Bu baxımdan dərsin gedişi cəlbedici, eləcə də araşdırıcı olmaqla şagirdin, eləcə də müəllimin müəyyən bacarıqlarını üzə çıxarar, peşəkarlığını inkişaf etdirər.

Əgər siz işinizin səmərəli olmasını istəyirsinizsə, düzgün standartlar seçməklə düzgün məqsədlərin qoyulması işinə diqqət yetirməlisiniz. Düzgün seçilməyən standart məqsədin reallaşdırılmasına mane olar, nəticələr arzuolunmaz ola bilər. Belə ki standarta uyğun məqsədin qoyulmaması dərsin səmərəsizliyindən xəbər verir. Standart və ona uyğun qoyulan məqsəd sonda şagirdin məqsədəuyğun meyarlarla qiymətləndirilməsinə gətirib çıxarır. Sən bu gün hansı ölçü əsasında hansı məqsədi reallaşdırdın və necə qiymətləndirdin? Qiymətləndirmə dərsin bütün mərhələlərində özünü əks etdirə bilər. Əsas odur ki, şagirddə formalaşdırılan bacarığın səviyyəsi müəyyən edilsin.

Yalnız müxtəlif resurslarla, maraqlı motivasiya ilə, eləcə də tədqiqat işi ilə əhatə olunmuş dərs keyfiyyətdən xəbər vermir. Dərs mühitinin sağlam şəkildə idarə olunması vacibdir. Bəzən yığılmış mükəmməl slayd və iş vərəqləri və yaxud bu kimi şeylər səmərəsi olmayan bir dərsin görüntülənməsinə gətirib çıxarır. Müəllimin verdiyi tapşırıqlar, qrup bölgüsü, fərdi iş və s. tam bir qarışıqlıq halında ortaya çıxır. Dərsin sonunda şagird heç bir nəticəyə nail olmadan sinfi tərk edir. Bu baxımdan planlaşmanın düzgün aparılması ilə yanaşı, düzgün idarəçilik bacarığı sizin yardımınıza çatmış olacaqdır.

İş vərəqlərini hazırlayarkən təfəkkürün inkişafını mütləq nəzərə almaq lazımdır. Məntiqi, tənqidi və yaradıcı təfəkkürə aid tapşırıqların verilməsi daha doğru olar. Aşağıdakı cədvələ əsasən siz şagird təfəkkürünü lazımi səviyyədə inkişaf etdirə bilərsiniz.

LAYİHƏ

| Məntiqi təfəkkür | Tənqidi təfəkkür | Yaradıcı təfəkkür |
|---|---|---|
| Təsvir et.<br>Müqayisə et.<br>Oxşarlıqları və fərqləri tap.<br>Təsnif et. | Müxtəlif baxış nöqtələrindən qiymətləndir.<br>Əhəmiyyətini, rolunu qiymətləndir. | □ Hekayə<br>□ Situasiya<br>□ Nağıl<br>□ Musiqi<br>□ Üsul |
| Qur.<br>Dəyişdir.<br>Hesabla.<br>Sadələşdir. | Meyarları müəyyən et.<br>Meyar cədvəlini tərtib et. | □ Maket<br>□ Model<br>□ Sxem<br>□ Qrafik |
| Müəyyən et.<br>Öz tərifini ver.<br>Əlaqəni aşkar et. | Səhvləri tap.<br>Faktları uydurmadan seçib ayır.<br>Mübahisəli məqamları aşkar et. | Proqnoz ver.<br>Müqayisə et və analoqu tap.<br>İxtira et, yarat.<br>Başqa obyektə döndər.<br>Yeni tətbiq üsulunu tap. |
| Sxem, qrafik, cədvəl düzəlt.<br>Tərtib et.<br>Davam et. | Tənqidi yanaş.<br>Düzgün olanı seç. | Dəyişikliklər et, yarat, yenidən tərtib et.<br>Dəyişikliklər etməklə yarat.<br>Quraşdır. |
| Təhlil et.<br>İzah et.<br>Şərh et .<br>Nəticə çıxar. | Ən mühüm predmetləri və hadisələri müəyyən et, əhəmiyyətini sübut et. | Yeni əsaslar üzərində təsnif et.<br>Yeni şəraitə uyğun hala gətir.<br>Tətbiq et (yeni şəraitdə). |
| Səbəbi tap (səbəb, nəticə). | Öz ideyanı əsaslandır (sübut et). | Öz şəxsi izahını ver.<br>Problemi müəyyən et, fərziyyələr irəli sür. |
| Ümumiləşdir.<br>Əsas ideyanı seçib ayır. | Ən səmərəli yolu tap. | Mübaliğə et.<br>Minimuma endir. |
| Mahiyyətini, mənasını ifadə et. | Məsləhət ver. | Simvol (rəmz) şəklində təsvir et. |

LAYİHƏ

Dərs başlayarkən müəyyən qaydalar tətbiq edin və bu qaydaların vərdişə çevrilməsinə. Qrup bölgüsü, müzakirə və s. məqamlarda səs-küyün minimum səviyyəyə düşməsi üçün qızıl qaydaları qoymağı unutmayın. Hətta bu qaydaların qrupların qiymətləndirilməsinə təsirini də vurğulayın. Şagirdlərin üzərinə bəzi məsuliyyətlər qoyun. Sinfin idarə olunmasında onlardan istifadə etmək olduqca səmərə verir. Şagird ona güvənən müəllimin etimadını doğrultmağa çalışır.

Bütün bunlarla yanaşı, diqqətiniz daim sinif üzərində olsun. Göz təması sizin əsas silahınızdır. Şagird ona baxan nəzərləri hiss edir, kənarda qalmadığını duyur və özünütəsdiqə çalışır. Sakit  və anlaşılan səs tonu sizin işinizi daha da rahatlaşdıracaq. Dərsin gedişi zamanı lazım olan vaxtlarda partalar arasında gəzişin. Onlara yönləndirici suallar verməklə yardım edin. Lazım gələrsə, açar sözlərdən istifadə edin. Şagirdin daim ağır yük altında qalması dərsin səmərəsini itirə bilər. Şagirdlərə dərsin gedişi zamanı adları ilə müraciət etməyə çalışın. Qaydaları şagirdlərlə birgə tətbiq edin. Şagirdlər düzgün olmayan davranışı özləri müəyyən etsinlər və öz işlərində buna yol verməsinlər. Amma hər hansı bir səhv hərəkətin üzərində dəqiqələrlə dayanıb dərsin gedişinə mane olmayın. Qaydaları tez-tez xatırlatmanız daha səmərəli nəticə verər.

Vaxtdan düzgün və səmərəli istifadə etməyə çalışın. Bu səmərəlilik bütün sinif üçün olmalıdır. Təkcə özünüzü düşünməyin. Bəzən belə hallar da olur: "Mən əla dərs keçdim, hər şeyi dedim, tapşırıqlar verdim, refleksiya da etdim". "Bu çox səmərəli dərs oldu", Siz bu səmərəliliyə şagird yönündən baxın. "Bu gün şagird nə qazandı?" "Onda hansı bilik və bacarıqlar formalaşdı" və s.

Daim öz üzərinizdə çalışmağınız, yeniliklərdən xəbərdar olmağınız, təcrübələrinizi bölüşməyiniz, başqalarının təcrübəsindən istifadə etməyiniz sizin peşəkar inkişafınıza səbəb olacaqdır. Sizin inkişafınız isə yetişən gənc nəslin inkişafı deməkdir.

Kurikulumun tələblərindən biri fəal-interaktiv təlimin reallaşdırılmasıdır. Bu işin həyata keçirilməsində müxtəlif təlim üsul və formaları köməyimizə çatmış olur. Bəzən  müəllimlər özlərinin öyrənmə üsulunu şagirdlərə tətbiq edirlər. Bu tətbiqetmə çox zaman öz səmərəsini vermir. Əldə olunan nəticə yetərsiz olur. Siz şagirdlərinizin xüsusiyyətlərini və öyrənmə tərzlərini müəyyən etməklə onları lazımi istiqamətə yönləndirə bilərsiniz. Müxtəlif öyrənmə tərzləri vardır ki, bunlardan bəziləri ilə tanış olmanızı tövsiyə edirik.

*Əyani öyrənmə tərzi*. Bu zaman şagirdlər əyaniliyə üstünlük verir, gözlə görünən hər bir şeyi daha yaxşı qavrayır, tətbiqi onlara asan gəlir. Müxtəlif şəkillər, xəritələr, miniatürlər, sxemlər, portretlər, diaqramlar, nümayişlər, pay-



LAYİHƏ

lama materialları, filmlər, flipçartlar və s. sizə bu işdə yardımçı olacaqdır. Belə şagirdlər verilən tapşırığı çox zaman özləri oxumağa üstünlük verirlər. (Yaxud da kiminsə təlimatın icrasını reallaşdırmasına baxmaq onun öyrənməsini rahatlaşdırır.) Yalnız bundan sonra o, tapşırığı dolğun və düzgün şəkildə yerinə yetirə bilir.

*Eşidərək öyrənmə tərzi*. Bu zaman şagirdlər dinləyərək qavramağa malik olurlar. İstənilən tapşırığı icra etmələri üçün müəllimin təlimatına diqqətlə qulaq asmaları vacibdir. Dərsin təhlili, şagirdlərin tapşırıqları təqdim etməsi, müzakirələr onların öyrənməsi üçün vasitə hesab edilir.

Siz bu cür öyrənmə tərzinə malik olanları necə müəyyənləşdirə bilərsiniz? Bunun üçün diqqətli olmaq və müşahidələr aparmaq vacibdir. Bəzi məqamları da diqqətdən qaçırmamaq tövsiyə olunur. Məsələn, əyani öyrənmə tərzinə malik olan şagirdlər sürətlə danışır, səbirsiz olur, başqalarının sözünü kəsirlər. Danışarkən obrazlı sözlərlə, hadisələri tam təsvir edərək sanki əyanilik yaradırlar. Onlar görüntülü dərs prosesini maraqla izləyir, tapşırıqların icrası zamanı əyaniliyə üstünlük verirlər.

Bu cür xüsusiyyətləri diqqət mərkəzində saxlamaqla siz öz şagirdləriniz arasında əyani öyrənənləri seçə bilərsiniz. Bu istiqamətdə addım atmaq sizin həm peşəkarlığınıza, həm də keyfiyyətin yüksəldilməsinə yardım edəcəkdir.



LAYİHƏ

**Mövzu:** Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları

**Standart:** 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir.

**Məqsəd:** Dövlətin funksiyalarını izah edir.

**Təlim forması:** Kollektiv iş, qruplarla iş

**Təlim üsulu:** BİBÖ, cədvəllərlə iş

**Resurslar:** Dərslik, iş vərəqləri, dövlətin funksiyalarına aid paylama materialı

**İnteqrasiya:** Az.t.: 3.1.1.

## Dərsin gedişi

**Motivasiya:**
Müəllim BİBÖ üsulundan istifadə etməklə motivasiya yaradır. Şagirdlərin dövlət haqqında bildiklərini və öyrənmək istədiklərini cədvəldə qeyd edir.

**Tədqiqat sualı:** Dövlətin hansı funksiyaları vardır?

Müəllimin kiçik mühazirəsi təşkil olunur. Elektron lövhədə dövlətin funksiyaları göstərilir. Şagirdlərlə birgə bu funksiyaların nə üçün bu cür adlandırıldığı, bu funksiyaları necə başa düşdükləri qısa müzakirə edildikdən sonra şagirdlər tədqiqata yönəldilir. Tədqiqat qruplarda aparılır.

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünür. Onlar dövlətin funksiyalarına aid paylama materialları ilə təmin olunur.

**I qrup:** Dərslikdən və paylama materiallarından istifadə etməklə cədvəli tamamlayın.



LAYİHƏ

| Dövlətin funksiyası | Görülən işlər |
|---|---|
| Hüquqi funksiya | |
| Sosial funksiya | |

**II qrup:** Dərslikdən və paylama materiallarından istifadə etməklə cədvəli tamamlayın.

| Görülən işlər | Dövlətin funksiyası | Nümunələr |
|---|---|---|
| Qruplar arasında münaqişələrə imkan vermir. | | |
| Yeni məktəblər tikir və təmir edir. | | |
| Əhalinin dünya mədəniyyəti ilə tanış olması üçün tədbirlər təşkil edir. | | |

**III qrup:** Dərslikdən və paylama materiallarından istifadə etməklə düzgün olanları müəyyənləşdirin.

1. Dövlətin xarici və daxili funksiyaları vardır.
2. Ölkənin müdafiə funksiyası onun daxili funksiyasına aiddir.
3. Sosial və siyasi funksiya dövlətin xarici funksiyasıdır.
4. Dövlət çoxuşaqlı ailələrə kömək edir.
5. Cəmiyyətin bütövlüyünü təmin edir.
6. İnsanların hüquqlarının qorunması dövlətin müdafiə funksiyasına aiddir.
7. Yeni iş yerlərinin açılması dövlətin iqtisadi funksiyasına aiddir.
8. Tələbatın çox olduğu malların vergisinin azaldılması dövlətin iqtisadi funksiyasına aiddir.



LAYİHƏ

**IV qrup:** Paylama materialına əsasən respublikada 2016–2017-ci illərdə təhsillə bağlı görülən işlərin siyahısını tərtib edin.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupların işinə əlavələr edir.

**Nəticələrin çıxarılması və ümumiləşdirmə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. BİBÖ cədvəlinin "Öyrəndim" sütunu dərsin bu mərhələsində doldurulur.

Dövlət bütün ölkə əhalisi və ərazisinə şamil olunan vahid siyasi təşkilatdır. Onun daxili və xarici funksiyaları vardır. Bu funksiyalar cəmiyyətin idarə olunmasında mühüm rol oynayır.

**Ev tapşırığı:** Dövlətin müdafiə funksiyası ilə bağlı məlumat toplayın.

**Qiymətləndirmə meyarları:** Qrup işlərini aşağıdakı meyarlara əsasən apara bilərsiniz.

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IVqrup |
|---|---|---|---|---|
| Tapşırığı tam yerinə yetirmə | | | | |
| Təqdimetmə | | | | |
| Tapşırığı vaxtında yerinə yetirmə | | | | |
| Əməkdaşlıq | | | | |

LAYİHƏ

**Mövzu:** Hüquqlarımızın qorunması

**Standart:** 2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir.

2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti ilə bağlı topladığı materialları təqdim edir.

**Məqsəd:** İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini şərh edir və onlara dair təqdimat hazırlayır.

**Təlim forması:** Kollektiv iş, qruplarla iş

**Təlim üsulu:** Anlayışın çıxarılması, cədvəllərlə iş, şaxələndirmə

**Resurslar:** Dərslik, iş vərəqləri, icra hakimiyyətlərinin, məhkəmələrin, beynəlxalq qurumların fəaliyyətinə aid paylama materialı, internet resursları

**İnteqrasiya:** İnf.: 1.2.3.

## Dərsin gedişi

**Motivasiya:** Müəllim anlayışın çıxarılması üsulundan istifadə etməklə motivasiya yaradır.




**Tədqiqat sualı:** İnsan hüquqlarını müdafiə edən təşkilatların fəaliyyəti nədən ibarətdir?

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünürlər. Onlar insan hüquqlarını müdafiə edən qurumlara aid paylama materialları ilə təmin olunurlar.

**I qrup:** Dərslikdən, paylama materiallarından və ya internet resurslarından istifadə etməklə cədvəli tamamlayın.

LAYİHƏ

| Dövlət qurumu | Göstərdiyi fəaliyyət |
|---|---|
| İcra hakimiyyəti | |
| Məhkəmə | |

**II qrup:** Dərslikdən, paylama materiallarından və ya internet resurslarından istifadə etməklə cədvəli tamamlayın.

| Beynəlxalq qurum | Göstərdiyi fəaliyyət |
|---|---|
| BMT | |
| ATƏT | |

**III qrup:** Dərslikdən, paylama materiallarından və ya internet resurslarından istifadə etməklə cədvəli tamamlayın.

| Uşaq hüquqlarını müdafiə edən qurum | Qurumun müdafiə etdiyi hüquqlar |
|---|---|
| | |

**IV qrup:** Dərslikdən, paylama materiallarından və ya internet resurslarından istifadə etməklə cədvəli tamamlayın.

| Qadın hüquqlarını müdafiə edən qurumlar | Qurumların müdafiə etdiyi hüquqlar |
|---|---|
| | |

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupların işinə əlavələr edir.

**Nəticələrin çıxarılması və ümumiləşdirmə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

LAYİHƏ

İnsan hüquqlarının müdafiəsi ilə bir sıra təşkilatlar məşğul olur. Bu təşkilatlar hər kəsin bərabər azadlıq və hüquqlarını müdafiə edir.

Dərsin bu mərhələsində şaxələndirmə üsulundan da istifadə edə bilərsiniz.

**Ev tapşırığı:** Xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının qorunması ilə bağlı məlumat toplayın və təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** Qrup işlərini aşağıdakı meyarlara əsasən apara bilərsiniz.

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IVqrup |
|---|---|---|---|---|
| Tapşırığı tam yerinə yetirmə | | | | |
| Təqdimetmə | | | | |
| Tapşırığı vaxtında yerinə yetirmə | | | | |
| Əməkdaşlıq | | | | |

**Mövzu:** Sağlamlığın şərtləri

**Standart:** 4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir.

**Məqsəd:** Sağlamlığın əsas şərtlərini fərqləndirir.

**Təlim forması:** Kollektiv iş, qruplarla iş

**Təlim üsulu:** Beyin həmləsi, cədvəllərlə iş

**Resurslar:** Dərslik, iş vərəqləri, şəkillər

**İnteqrasiya:** B.: 3.2.1.



LAYİHƏ

## Dərsin gedişi

**Motivasiya:** Müəllim şagirdlərə aşağıdakı sualla da müraciət edir:

- Hansı xəstəlik adlarını bilirsiniz?
- Bu xəstəliklərə nələr səbəb olur?

Şagirdlərin verdikləri cavablara əsasən lövhədə klaster qurula bilər.

**Tədqiqat sualı:** Sağlam həyat tərzi keçirmək üçün nə etməliyik?

Şagirdlərin fərziyyələri lövhədə qeyd edilir. Və elektron lövhədə “Sağlam olmaq üçün bunlara əməl olunmalıdır” başlıqlı slayd nümayiş etdirilir.

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünürlər. Dərslik və digər mənbələrdən istifadə edərək sağlamlığın əsas şərtləri, sağlamlığın qorunması yolları araşdırılır.

**I qrup:** Əgər siz Səhiyyə Nazirliyinin əməkdaşı olsaydınız, əhalinin sağlamlığını qorumaq və möhkəmləndirmək üçün hansı işləri görərdiniz?

---

---

---

**II qrup:** “Sağlamlığın şərtləri” mövzusunu araşdırmaqla sağlamlığın hansı şərtlərinə əməl olunmadığını və bunun nəyə səbəb olacağını müəyyənləşdirin.

| Müşahidə olunan hallar | Sağlamlığın hansı şərtinə əməl edilmir | Nəticəsi | Təklifiniz |
|---|---|---|---|
| Uşaq çirkli əllərini tez-tez ağzına vurur, yaxşı yuyulmamış meyvə və tərəvəz yeyir, çirkli qablardakı sudan istifadə edir. | | | |
| Akifin anası elmi işçidir. O, bütün gününü kompüter arxasında oturaq vəziyyətdə keçirir. | | | |

LAYİHƏ

**III qrup:** Əgər siz məktəb psixoloqu olsaydınız, şagirdlərin emosional cəhətdən sağlam olmaları üçün hansı işləri görərdiniz?

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

**IV qrup:** Paylama materiallarına və dərsliyə əsasən cədvəldə verilmiş şəkillərdə sağlamlığın hansı şərtlərinə əməl olunmadığını və bunun nəyə səbəb olacağını müəyyənləşdirin.

| | Sağlamlığın hansı şərtinə əməl edilmir | Nəticəsi |
|---|---|---|
|  | | |
|  | | |

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupların işinə əlavələr edir.

**Nəticələrin çıxarılması və ümumiləşdirmə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

Şəxsi gigiyena qaydalarına riayət etmək, zərərli vərdişlərdən uzaq olmaq, idman və istirahət vaxtını düzgün planlamaq, düzgün qidalanmaq və s. sağlamlığın şərtlərindəndir.

Sağlamlıq xoşbəxt həyatın əsas şərti və təminatıdır. Sağlamlığımızı qorusaq və möhkəmləndirsək, uzun ömür sürər, fəal həyat tərzi keçirər və gümrah olarıq.

LAYİHƏ

**Yaradıcı tətbiqetmə:** Sağlamlığın qorunmasına dair sual hazırlayın.
**Ev tapşırığı:** Uzunömürlülüyün sirrinə aid esse yazın.

**Qiymətləndirmə meyarları:** Qrup işlərini aşağıdakı meyarlara əsasən qiymətləndirə bilərsiniz.

***Qiymətləndirmə meyarları:***

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Tapşırığı tam yerinə yetirmə | | | | |
| Təqdimetmə | | | | |
| Tapşırığın vaxtında yerinə yetirilməsi | | | | |
| Əməkdaşlıq | | | | |

**Mövzu:** Təbiətdəki təhlükəli hadisələrdən qorunaq

**Standart:** 4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir.

**Məqsəd:** Təbii fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir.

**Təlim forması:** Kollektiv iş, qruplarla iş

**Təlim üsulu:** Beyin həmləsi, anlayışın çıxarılması, cədvəllərlə iş

**Resurslar:** Dərslik, iş vərəqləri, fövqəladə hadisələrə aid paylama materialı, şəkillər

**İnteqrasiya:** C.: 2.1.1.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim anlayışın çıxarılması üsulundan istifadə etməklə motivasiya yaradır:

LAYİHƏ

Şəkildə hansı hadisələr öz əksini tapıb?



**Tədqiqat sualı:** Fövqəladə hallar zamanı tələb olunan davranış qaydaları hansılardır?

Şagirdlərin fərziyyələri lövhədə müəllim tərəfindən qeyd olunur. Qeyd edilən davranış qaydalarının onların fikrincə hansı fövqəladə hadisələrə aid olduğu da lövhədə yazılır. Bundan sonra şagirdlər tədqiqatın aparılmasına yönəldilir. Tədqiqatın sonunda lövhədə qeyd olunan fərziyyələrlə araşdırmanın nəticələri tutuşdurulur. Qısa müzakirə aparılır.

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünürlər. Dərslik və digər mənbələrdən istifadə edərək fövqəladə hadisələr zamanı yarana biləcək təhlükələr və bu zaman davranış qaydaları araşdırılır.

**I qrup:** Dərslikdən və paylama materiallarından istifadə etməklə torpaq sürüşməsi zamanı yarana biləcək təhlükələri və bu təhlükə zamanı davranış qaydalarını cədvəldə qeyd edin.

| Fövqəladə hadisələr | Yarana biləcək təhlükələr | Davranış qaydaları |
|---|---|---|
| Torpaq sürüşməsi | | |
| İldırım çaxması | | |



LAYİHƏ

**II qrup:** Dərslikdən və paylama materiallarından istifadə etməklə cədvəldə verilmiş fövqəladə hadisələri, yarana biləcək təhlükəni və bu zaman davranış qaydalarını yazın.

| Fövqəladə hadisələr | Yarana biləcək təhlükələr | Davranış qaydaları |
|---|---|---|
| Çovğun | | |
| Zəlzələ | | |

**III qrup:** Dərslikdən və paylama materiallarından istifadə etməklə yanğın zamanı yarana biləcək təhlükələri və bu təhlükələr zamanı davranış qaydalarını cədvəldə qeyd edin.

| Fövqəladə hadisələr | Yarana biləcək təhlükələr | Davranış qaydaları |
|---|---|---|
| Zəlzələ | | |
| Yanğın | | |

**IV qrup:** Təqdim olunan davranış qaydalarına hansı təbii fövqəladə hadisələr zamanı əməl olunmalıdır.

| Davranış qaydaları | Fövqəladə hadisələr |
|---|---|
| Palçıq axıntısının gəldiyi yolun üzərində dayanmayın. | |
| Dərhal yüksək bir yerə çıxın. | |
| Qayaların, böyük ağacların gövdəsinin altında üzüüstə yerə uzanıb başınızı tutun. | |

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupların işinə əlavələr edir.

**Nəticələrin çıxarılması və ümumiləşdirmə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır.

Dərslikdə öz əksini tapan zəlzələ, sel, daşqın, sürüşmə, ildırım çaxması, tufan, çovğun zamanı davranış qaydaları elektron lövhədə nümayiş etdiri-

LAYİHƏ

lir. Qeyd olunur ki, təbii fövqəladə hadisələr qaçılmazdır. Bu hadisələr hər zaman, hər bir yerdə baş verə bilər. Fövqəladə hadisələr zamanı baş verə biləcək təhlükəni qiymətləndirməli, hər zaman necə davranmalı olduğumuzu bilməliyik ki, həm özümüzə, həm də ətrafımızdakı insanlara yardım etmiş olaq.

**Yaradıcı tətbiqetmə:** Şagirdlərə müxtəlif bir fövqəladə hadisələr zamanı davranış qaydalarını əks etdirən şəkillər paylayın. Onlara araşdırdıqları fövqəladə hadisəyə uyğun davranış qaydasını əks etdirən şəkli seçib lövhədəki qrup tapşırığının yanına yapışdırmağı tapşırın.

**Ev tapşırığı:** Təqdimat üçün güclü istilər zamanı davranış qaydalarını əks etdirən slayd hazırlayın.

**Qiymətləndirmə meyarları:** Qrup işlərini aşağıdakı meyarlara əsasən qiymətləndirə bilərsiniz.

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Tapşırığı tam yerinə yetirmə | | | | |
| Təqdimetmə | | | | |
| Tapşırığı vaxtında yerinə yetirmə | | | | |
| Əməkdaşlıq | | | | |



LAYİHƏ

# Mövzu 1. Ünsiyyət mədəniyyəti

| | |
|---|---|
| **Alt standart** | 3.1.1. Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir.<br>3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir. |
| **Məqsəd** | Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amillərlə bağlı mühakimə yürüdür.<br>Cəmiyyətin həyatında əxlaq və davranış qaydalarının rolunu və əhəmiyyətini izah edir. |

Bu mövzunun tədrisinə 2 saat vaxt ayrılmışdır. Mövzunun ilk dərs günü olduğu, diaqnostik qiymətləndirmə aparılması və mətnin müzakirələrə səbəb olması nəzərə alınmışdır. Dərsə ümumi diaqnostik qiymətləndirmə ilə başlaya bilərsiniz. Qiymətləndirməni sual-cavab şəklində apara bilərsiniz. Keçirilən qiymətləndirmə şagirdlərin aşağı siniflərdən əldə etdikləri bilik və bacarıqlar haqqında məlumat almağa imkan yaratmaqla yanaşı, sizə gələcək fəaliyyətinizi qurmağa imkan yaradacaqdır.

Motivasiyanı yaratmaq üçün aşağıdakı formaların birindən istifadə oluna bilər:

a) Yeni mövzunun tədrisinə başlamaq üçün (A) blokundakı kimi motivasiya yarada bilərsiniz. Bunun üçün aşağıdakı suallardan istifadə etmək tövsiyə olunur. "Daha hansı..?" "Nəyə görə..?" və s.

b) Motivasiyanı beyin həmləsi üsulundan istifadə etməklə də yaratmaq mümkündür. Şagirdlərə aşağıdakı sualla müraciət oluna bilər:

Ünsiyyətin hansı formaları vardır? Hansı formaya üstünlük verirsiniz? Nə üçün?

Tədqiqatın "Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amillər hansılardır? Səmərəli ünsiyyət üçün nələrə əməl olunmalıdır?" sualları ətrafında aparılması məqsədəuyğundur. Şagirdlərin fikirlərini lövhədə yazmaq tövsiyə olunur. Tədqiqata (B) blokundakı tapşırığın icrası ilə başlaya bilərsiniz.

Şagirdlər tapşırıqla tanış olub, burada verilən şəkillərin ünsiyyətin hansı növünə aid olduğunu müəyyən etməlidirlər. Tapşırıq kollektivdə yerinə yetirilmək üçün nəzərdə tutulub. Şagirdlərə seçimlərini izah etmələrinə imkan yaradın.

(C) blokundakı mətnin şagirdlər tərəfindən sinifdə oxunması onlarda yaranan sualları, anlaşılmazlığı vaxtında aradan qaldırmağa imkan verəcəkdir. Bunun üçün fasiləli oxu üsulundan istifadə edə bilərsiniz. *Fasiləli oxu – mətnin hissə-hissə oxunmaqla müzakirə olunmasıdır.*

($B_2$) blokundakı tapşırığa şagirdlər münasibət bildirdikdən sonra onların fikirləri ümumləşdirməli və "Ünsiyyətin səmərəli olması üçün ünsiyyət zamanı" başlıqlı qaydalarla tanışlıqlarına imkan yaradılmalıdır. Bu qaydalar bir növ onların fikirlərini nizama salmağa imkan yaradır.

LAYİHƏ

($B_3$) bloku Deyl Karneginin irəli sürdüyü fikirlər əsasında qurulub. Müzakirə tələb edir.

($B_4$) və ($B_5$) blokları da müzakirə xarakterlidir.

Göründüyü kimi tədqiqatın kollektivdə aparılması nəzərdə tutulur.

Tədqiqatı davam etdirmək üçün (F) blokundakı tapşırıqlardan seçdiyiniz təlim formasına, sinifdəki şagirdlərin səviyyəsinə müvafiq istifadə edə bilərsiniz. 3-cü tapşırığın cavablarını şagirdlərlə birgə müzakirə etmək məqsədəuyğundur.

Ümumiləşdirməni təxminən aşağıdakı kimi aparmaq mümkündür:

"Ünsiyyət mədəniyyətinin formalaşmasına oxuduğunuz bədii əsərlər, izlədiyiniz teatrlar, kinofilmlər, digər televiziya və radioverilişləri də təsir göstərir. Təbii ki, bu zaman öz yaşınıza uyğun verilişləri izləməyiniz məqsədəuyğundur".

(E) blokundakı münaqişənin həlli yolları göstərilmişdir. Bu məlumat şagirdləri yaranan münaqişələr zamanı düzgün qərar çıxarmağa yönəldəcəkdir.

**Ev tapşırığı:** Şagirdlərə Ədəbiyyat fənnindən onlara tanış olan hər hansı bir bədii əsərdəki müsbət qəhrəmanın davranışları və əməlləri barədə esse yazmağı tapşıra bilərsiniz.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

- Mühakimə yürütmə
- İzahetmə

| I | II | III |
|---|---|---|
| Ünsiyyətin formalaşmasına təsir edən amilləri təsvir edir, mühakimə yürütməkdə çətinlik çəkir. | Ünsiyyətin formalaşmasına təsir edən amilləri və qaydaları məzmundakı fikirlərə əsaslanaraq izah edir, müəllimin suallarına əsasən mühakimə yürüdür. | Ünsiyyətin formalaşmasına təsir edən amillər haqqında faktlara əsaslanaraq mühakimə yürüdür. |
| Qaydaları sadalayır, izah etməkdə çətinlik çəkir. | Davranış qaydalarını məzmundakı fikirlərə əsasən izah edir. | Davranış qaydalarını faktlar əsasında izah edir. |

LAYİHƏ

# Mövzu 2. Davranış normaları

| | |
|---|---|
| **Alt standart** | 3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir.<br>4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir. |
| **Məqsəd** | Ailədə və cəmiyyətdəki davranış qaydalarını şərh edir.<br>Əxlaq və davranış qaydalarının rol və əhəmiyyətini izah edir.<br>Əxlaq və davranış qaydalarına əməl etməyi sağlamlığın əsas şərtlərindən biri kimi fərqləndirir. |

Motivasiyanı yaratmaq üçün aşağıdakı formaların birindən istifadə edə bilərsiniz.

(A) blokunda verilmiş sualların cavablarını şagirdlərdən soruşun. Bu cavablara əsasən davranış qaydaları barədə şagirdlərin fikirlərini öyrənərək “Bu qaydalar olmasaydı, nələr baş verərdi?” sualı ilə tədqiqata yönəldin.

(B) Şagirdlərə rəngli stikerlər paylayıb onlara müxtəlif davranışlar yazmalarını tapşıra bilərsiniz.

Şagirdlərə yazılmış rəngli stikeri götürüb aşağıdakı cədvəlin uyğun sütununa yapışdırmaları tapşırıla bilər. Şagirdlərə aşağıdakı sualla müraciət olunur:

– Nəyə görə birinci sütundakıları müsbət, ikinci sütundakıları isə mənfi davranışa aid etdiniz?

| müsbət | mənfi |
|---|---|
| | |

**Tədqiqat sualı:** Əxlaq və davranış normaları hansılardır və cəmiyyətin həyatında nə kimi rolu vardır?

Tədqiqatın kollektivdə aparılmasını planlaşdırdığımız halda bu prosesin dialoji olmasına diqqət edin. Bunun üçün C blokundakı mətni oxudaraq müzakirələr təşkil olunmalı, yeri gəldikcə, elektron təqdimat nümayiş etdirilməli, B blokunda verilən tapşırıqlar, şəkillər, qaydalar kollektivlə müzakirə olunmalıdır. Bu məqsədlə F blokundakı tapşırıqlardan da istifadə edə bilərsiniz.

Tədqiqat qruplarda və ya cütlərdə də aparıla bilər. Bu halda (F) blokunda (B) blokunda verilmiş tapşırıqlardan istifadə edə, yaxud onlara müvafiq tapşırıqlar hazırlaya bilərsiniz. Tapşırıqlar qruplara, yaxud sinifdəki şagirdlərin sayına müvafiq cütlərə verilə bilər. Tapşırıqların icrası üçün şagirdlərə davranışlarla bağlı paylama materialı təqdim edilməli, “Ailədə və cəmiyyətdə davranış qaydaları” kitabından eyni zamanda da Nəqliyyat Agentliyinin hazırladığı vəsaitdən istifadə imkanı yaradılmalıdır.

LAYİHƏ

Dərsin ümumiləşdirmə və nəticə mərhələsində şaxələndirmə üsulundan istifadə etmək məqsədəuyğundur.

Ümumiləşdirmə aşağıdakı kimi aparıla bilər: Hər zaman öz gözəl əxlaqınız və davranışlarınızla ətrafdakılara nümunə olmağa çalışın. Davranış qaydalarına əməl etsəniz, yoldaşlıq, dostluq əlaqələriniz daha da möhkəmlənər.

**Ev tapşırığı:** Şagirdlərə “Məktəbinizdə daha hansı davranış qaydalarına əməl olunmasını istərdiniz?” mövzusunda esse yazmalarını və yaxud F blokundakı 5-ci tapşırığı yerinə yetirmələrini tapşıra bilərsiniz. Növbəti dərs saatında bu tapşırığın qısa müzakirəsi təşkil oluna bilər.

Şagirdlərin təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

• İzahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Davranış qaydalarının bir qismini sadalayır, rolunu və əhəmiyyətini izah etməkdə çətinlik çəkir. | Davranış qaydalarını sadalayır, rolunu və əhəmiyyətini müəllimin köməyi ilə izah edir. | Davranış qaydalarını şərh edir, əhəmiyyətini və rolunu mətndən nümunələr gətirərək izah edir. | Davranış qaydalarının ailə və cəmiyyətdəki rolunu və əhəmiyyətini fərqləndirir, fikirlərini nümunələrlə izah edir. |



LAYİHƏ

# Mövzu 3. Ailə və Vətən qarşısında mənəvi borcumuz

| | |
|---|---|
| **Alt standart** | 3.2.2. Ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir. |
| **Məqsəd** | Ailədə və Vətən qarşısındakı mənəvi borcunu nümunələrlə izah edir. |

Mövzunun tədrisinə 2 saat vaxt ayrılmışdır. I dərs saatını ailəyə, II dərs saatını Vətən qarşısındakı mənəvi borca həsr edin.

Motivasiyanı aşağıdakı formaların birindən istifadə etməklə yarada bilərsiniz.

a) Mövzuya başlamaq üçün şagirdlərin diqqətini (A) blokundakı fikrə yönəldərək bu barədə fikirlərini dinləyə bilərsiniz:

b) Şagirdlərə aşağıdakı sualla müraciət oluna bilər:

– Sizcə, əsl vətəndaş kimdir?

• Sizin ailə və Vətən qarşısında borcunuz nədən ibarətdir?

**Tədqiqat sualı:** Sizin ailə və vətən qarşısında mənəvi borcunuz nədən ibarətdir?

Şagirdlərin fikirlərini lövhədə yazmaq tövsiyə olunur.

(C) blokundakı mətnin araşdırılmasını kollektivlə müzakirə şəklində aparmaq məqsədəuyğundur. Müzakirə 2 istiqamətdə aparıla bilər:

• Ailə qarşısında mənəvi borcumuz

• Vətən qarşısında mənəvi borcumuz

I dərs saatında Ailə qarşısındakı mənəvi borcun nədən ibarət olması müzakirə obyektidir. Bunun üçün yuxarıda qeyd olunduğu kimi (C) bloku fasiləsi oxu üsulundan istifadə edilməklə oxunmalı, ailəyə aid olan videoçarx və yaxud slayd nümayiş etdirilməlidir. Müzakirə (B) blokundakı sxemi və (F) blokundakı I və II tapşırıq üzərində təşkil oluna bilər. Bu dərsdə “Ögey ana” filmindən də fraqmentlər nümayiş etdirərək müzakirə oluna bilər.

Ümumiləşdirmə apararkən şagirdlərlə birlikdə aşağıdakı nəticəyə gəlməyə çalışın:

Ailə kiçik bir dövlətdir. Biz ailədə öz vəzifələrimizə düzgün əməl etsək, layiqli övlad olar, Vətənin qarşısında da borcumuzu layiqincə yerinə yetirərik.

**Ev tapşırığı:** Şagirdlərə aşağıdakı cədvəli işləmələrini tapşıra bilərsiniz:

| | |
|---|---|
| 1. Ailədə hansı vəzifələrin var? | |
| 2. Hansı vəzifələri yerinə yetirirsən? | |
| 3. Hansı vəzifələri yerinə yetirə bilmirsən? | |

LAYİHƏ

II dərs saatı “Vətən qarşısındakı mənəvi borcumuz” mövzusuna həsr olunur.

Bu dərs saatında dərslikdə verilən mətnlə yanaşı aşağıdakı məqamlara toxunulmalıdır:

Vətənpərvər kimdir? 20 yanvar şəhidləri:

Torpaqlarımızın 30 ilə yaxın işğal altında qalması

I Qarabağ müharibəsi

II Qarabağ müharibəsi

Aprel döyüşləri

Milli qəhrəmanlarımız

Vətən müharibəsində müxtəlif adda medallarla təltif olunmuş qəhrəmanlarımız və s.

Qeyd olunanlarla bağlı Ali Baş Komandanımızın uğurlu siyasətni, igid oğullarımızın qəhrəmanlıqlarını, əsgər və zabitlərimizin hünərini, xalqımızın iradəsini əks etdirən videoçarxlar, şəkillər bu dərs saatında nümayiş etdirilməli, müzakirə olunmalıdır. Bu mövzunun tədrisinə məktəbin çağırışaqədər hazırlıq müəlliminin də cəlb olunması məqsədəuyğundur.

F blokundakı 3–9-cu tapşırıqların da bu dərs saatında yerinə yetirilməsi nəzərdə tutulur.

6-cı, 7-ci tapşırıq ev tapşırığı olaraq verilə bilər.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

• İzahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Ailə və vətən qarşısındakı mənəvi borcunu çətinliklə izah edir. | Mənəvi borcunu sualların köməyi ilə izah edir. | Mənəvi borcu mətnə əsasən izah edir, nümunələr göstərə bilmir. | Ailə və vətən qarşısındakı mənəvi borcu fərqləndirir, müxtəlif nümunələrə əsasən ətraflı izah edir. |



LAYİHƏ

# Mövzu 4. Dini ibadətlər və mərasimlər

| **Alt standart** | 3.3.1. Dini ibadət və mərasimləri müqayisə edir. |
|---|---|
| **Məqsəd** | Müxtəlif dinlərə dair ibadət və mərasimləri müqayisə edir. |

Mövzu ilə bağlı motivasiyanı müxtəlif cür yarada bilərsiniz:

a) Şagirdlərin fikirlərini Ⓐ blokundakı şərhə və dini kitablara yönəltməklə idraki fəallıq yaratmaq olar.

b) BİBÖ üsulundan istifadə etməklə də motivasiya yaratmaq mümkündür. Bunun üçün şagirdlərin dinlərlə bağlı nəyi bildikləri, nəyi öyrənmək istədikləri müəyyənləşdirilib, cədvəlin I və II sütununda qeyd edilməlidir. III sütunu dərsin ümumiləşdirmə mərhələsində doldurmağı unutmayın.

Tədqiqatın "Səmavi dinlərə məxsus ibadət və mərasimlər hansılardır, onlar bir-birindən necə fərqlənir?" sualı ətrafında aparılması təklif olunur.

Tədqiqatın aparılması mərhələsi kollektivlə təşkil olunaraq keçməzdən əvvəl Ⓒ blokundakı mətni fasiləli oxu üsulundan istifadə etməklə şagirdlərlə müzakirə apara bilərsiniz. Bu mərhələdə yeri gəldikcə Ⓕ blokundan 1–5-ci tapşırıqlar yerinə yetirilməlidir. Ⓕ blokundakı 6-cı tapşırıq yaradıcı tətbiqetmə mərhələsində fərdi və yaxud ümumiləşdirmə nəticə mərhələsində kollektivlə yerinə yetirilə bilər. Tədqiqat qruplarda aparılarsa bu məqsədlə şagirdləri 3 qrupda birləşdirib Ⓒ blokundakı mətni araşdırmaqla Ⓕ blokundakı 7-ci tapşırığı yerinə yetirmələrini tapşıra bilərsiniz. Bunun üçün hər qrup 1 səmavi dini araşdıra bilər

Tədqiqatın uğurlu aparılması məqsədilə şagirdləri paylama materialı və ya Ayna Uşaq Ensiklopediyası ilə təmin etməyiniz vacibdir. Qrup işlərinin nəticələrini ümumiləşdirmək üçün lövhədə aşağıdakı ümumiləşdirici cədvəli qurmaq məqsədəuyğundur:

| Dinlər | Peyğəmbər | İbadət yeri | Müqəddəs gün | Dini mərasim | Necə həyata keçirilir |
|---|---|---|---|---|---|
| İslam | | | | | |
| Xristian | | | | | |
| Yəhudilik | | | | | |

Sonra qeyd olunmalıdır ki, dinlər müxtəlif olduğu kimi, bu dinlərin ibadət və mərasimləri də fərqlidir. Lakin bütün səmavi dinlərin oxşar cəhəti Allahın tək olmasını qəbul etməkdir.

LAYİHƏ

Bu mərhələdə dini mərasimlərlə bağlı videoçarx nümayiş etdirmək olar.

**Ev tapşırığı:** Şagirdlərə dini bayramları kimlərlə və necə keçirdikləri haqqında esse yazmalarını tapşıra bilərsiniz.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

• Müqayisəetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Müxtəlif dinlərə məxsus ibadət və mərasimləri sadalayır, müqayisə etməkdə çətinlik çəkir. | İbadət və mərasimlərin bir qismini müqayisə edir. | İbadət və mərasimləri müəllimin köməyi ilə müqayisə edir. | Müxtəlif dinlərə aid ibadət və mərasimləri ətraflı müqayisə edir. |



LAYİHƏ

# Mövzu 5. Dövlətdə idarəçilik

| | |
|---|---|
| **Alt standart** | 2.1.1. Cəmiyyətin idarə olunmasını şərh edir. |
| **Məqsəd** | Dövlət tərəfindən cəmiyyətin idarə olunduğunu şərh edir. |

Motivasiyanı müxtəlif cür yarada bilərsiniz.

a) Mövzuya başlamaq üçün şagirdlərin diqqətini dərsliyin Ⓐ blokundakı fikrə yönəldərək verilmiş sualı müzakirə edin. Şagirdləri “Dövlət olmayan yerdə qanun, qanun olmayan yerdə dövlət ola bilməz” fikrinə yönəldin.

b) Beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə belə bir sualla müraciət edə bilərsiniz:

– Aşağıdakılardan hansılar dövlət orqanlarıdır?

Məhkəmə, Nazirlər Kabineti, Milli Məclis, qeyri-hökumət təşkilatları, BMT...

**Tədqiqat sualı:** Cəmiyyət dövlət orqanları tərəfindən necə idarə olunur?

Şagirdlərin cavablarının flipçartda və ya lövhədə qeyd olunması vacibdir. Bu fikirlər şagirdlərin fərziyyələridir. Sonda bu cavablarla şagirdlərin tədqiqatlarını müqayisə etmək vacibdir. Tədqiqata başlamaq üçün şagirdlərə Ⓒ blokundakı mətni hissələrə bölüb paylayaraq Ⓕ blokunda verilmiş tapşırıqları yerinə yetirmələrini tapşıra bilərsiniz. Beləliklə, şagirdlər mətni həm oxuyacaq, həm də tapşırıqları yerinə yetirmələri üçün araşdırmalı olacaqlar. Bu blokdakı tapşırıqlar qruplarda yerinə yetirilə bilər. 3-cü və 6-cı tapşırıqların icrası üçün şagirdlərə paylama materialı vermək vacibdir.

Qrup işlərinin nəticələri müzakirə olunmalı və ümumiləşdirilməlidir. Ümumiləşdirmə və nəticə aşağıdakı kimi aparıla bilər: Azərbaycan demokratik dövlətdir. Dövlətin qanunları var və qanunları əsas tutaraq dövlət cəmiyyəti idarə edir.

**Ev tapşırığı:** Konstitusiyadan hər hansı bir maddə müəyyənləşdirib şagirdlərə “Əgər konstitusiyada bu maddə olmazsa, nə baş verər?” mövzusunda fikirlərini yazmaqlarını tapşıra bilərsiniz.

Şagirdlərin təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

• Şərhetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Dövlət tərəfindən cəmiyyətin idarə olunmasını çətinliklə şərh edir. | Cəmiyyətin idarə olunmasını müəllimin yönəldici sualları əsasında şərh edir. | Cəmiyyətin idarə olunmasını mətnə əsasən şərh edir. | Cəmiyyətin idarə olunmasını nümunələrə əsasən sərbəst şərh edir. |

LAYİHƏ

# Mövzu 6. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları

| | |
|---|---|
| **Alt standart** | 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir. |
| **Məqsəd** | Dövlətin funksiyalarını izah edir. |

Motivasiyanı ya *a*, ya da *b* variantlarında göstərildiyi kimi yarada bilərsiniz:

a) Ⓐ blokundakı fikri şagirdlərdən birinə oxutmaqla sonda verilmiş sualın siniflə müzakirəsini aparın. Aşağıdakı cavabların alınmasına xidmət edən yönəldici suallardan istifadə edə bilərsiniz:

1. Dövlət bütün ölkə ərazisi və əhalisinə şamil olunan vahid siyasi təşkilatdır.
2. Dövlət hakimiyyətinin xüsusi idarəetmə aparatı vardır.

b) Şagirdlərə aşağıdakı sualla da müraciət edə bilərsiniz:

– Dövlətin hansı vəzifələri vardır?

Şagirdlərin cavablarını lövhədə qeyd edib, onlarla birlikdə bu vəzifələri qruplaşdıra bilərsiniz. Burada təxminən "təhsillə", "ətraf mühitin qorunması ilə", "sağlamlıqla" bağlı qruplaşmalar alınacaq.

Tədqiqatın "Qruplaşdırdığınız bu vəzifələr dövlətin hansı funksiyalarına aiddir? Dövlətin daha hansı funksiyaları vardır?" sualları ətrafında aparılması nəzərdə tutulmuşdur. Tədqiqatı aparmazdan əvvəl Ⓒ blokundakı mətn, eləcə də Ⓓ blokundakı sxem şagirdlərlə birlikdə oxunur və aydın olmayan hissələr müzakirə olunur. B blokundakı tapşırığın müzakirəsi ona gətirib çıxaracaq ki, şagirdlərin muzeylərə səyahətini təhsil müəssisələri, mədəni qurumlar həyata keçirir. Beləliklə də dövlətin funksiyalarına keçid imkanı yaranacaq. Elektron lövhədən və yaxud da elə dərslikdən istifadə etməklə dövlətin daxili və xarici funksiyaları şagirdlərlə müzakirə olunaraq, B blokunun növbəti tapşırığı yerinə yetirilir. Tədqiqatın ardı qruplarla və yaxud fərdi şəkildə yerinə yetirilə bilər.

Ⓕ blokundakı 2, 5, 6-cı tapşırıqlar qrupda yerinə yetirilə bilər. 2-ci tapşırığın yerinə yetirilməsi üçün şagirdlərə paylama materialları verməniz vacibdir. Paylama materiallarının şagirdlərin yaş səviyyəsinə uyğunluğuna xüsusi diqqət yetirməniz tövsiyə olunur. Diferensial yanaşmanı təmin etməyə çalışın.

Tədqiqat işlərinin nəticəsi müzakirə olunmalı və ümumiləşdirilməlidir. Dərsin ümumiləşdirmə və nəticə mərhələsində şaxələndirmə üsulundan istifadə edə bilərsiniz:

LAYİHƏ




Dövlətin iqtisadi, sosial, hüquqi, siyasi, təhsil, mədəni-tərbiyə, ekoloji funksiyaları vardır. Bu funksiyalar cəmiyyətin idarə olunmasında mühüm rol oynayır.

**Ev tapşırığı:** F blokundakı I tapşırıq şagirdlərə dövlətin təhsillə bağlı gördüyü işlər haqqında məlumat toplamaq tapşıra bilərsiniz. Toplanılmış məlumat referat formasında təqdim oluna bilər. III, IV və VII tapşırıqlar da evdə yerinə yetirilə bilər. Bu halda növbəti dərsdə müzakirəni unutmayın.

Şagirdlərin təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

• İzahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Dövlətin funksiyalarını sadalayır, izah etməkdə çətinlik çəkir. | Dövlətin funksiyalarının bir qismini izah edir. | Dövlətin funksiyalarını müəllimin köməyi ilə izah edir. | Dövlətin funksiyalarını faktlara əsasən izah edir. |

LAYİHƏ

# Mövzu 7. Hüquqlarımızın qorunması

| | |
|---|---|
| **Alt standart** | 2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir.<br>2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti ilə bağlı topladığı materialları təqdim edir. |
| **Məqsəd** | Hüquqları müdafiə edən qurumların fəaliyyətini şərh edir və təqdimatlar hazırlayır. |

Bu standartın reallaşdırılmasına 2 saat vaxt ayrılmışdır. 2-ci dərs saatında şagirdlər topladıqları məlumatı təqdim etməlidirlər.

Motivasiyanı müxtəlif formada yarada bilərsiniz:

a) Dərsə şagirdlərin V sinifdən öyrəndikləri hüquqları müdafiə edən təşkilatlar haqqında biliklərini üzə çıxarmaqla başlaya bilərsiniz. Bunun üçün beyin həmləsi üsulundan istifadə etməklə aşağıdakı suallara cavab axtarmağa çalışın:

- İnsan hüquqlarını müdafiə edən qurumlar hansılardır? Bu qurumların fəaliyyəti nədən ibarətdir?

b) Anlayışın çıxarılması üsulundan istifadə etməklə də dərsə başlamaq olar:




**Tədqiqat sualı:** Bu qurumların fəaliyyəti nədən ibarətdir?

Tədqiqata başlamaq üçün Ⓒ blokundakı mətni fasiləli oxu üsulundan istifadə etməklə şagirdlərə oxutdura bilərsiniz. Beləliklə də, hüquqları müdafiə edən təşkilatların fəaliyyəti haqqında şagirdlərdə ümumi təsəvvür yaranır.

Tədqiqatın aparılması mərhələsində Ⓕ blokundakı tapşırıqlardan istifadə olunması məqsədəuyğundur. Şagirdlər tədqiqatı qrupla və yaxud cütlərlə yerinə yetirə bilərlər.

Ⓑ blokundakı tapşırıq şagirdlərlə müzakirə olunmaq məqsədi daşıyır. Burada qeyd olunan fikrin müharibə, pandemiya dövrü ilə əlaqələndirilməsi məqsədəuyğundur. Bu mövzuda 2.2.2. məzmun standartının reallaşdırılması da nəzərdə tutulduğundan şagirdlərə mümkün qədər paylama materiallarından, əlavə resurslardan, internetdən istifadə imkanı yaratmaq tövsiyə olunur. Tədqiqatın nəticələri slayd şəklində və yaxud flipçartda təqdim oluna bilər.

3-cü tapşırığın nəticəsi cədvəl şəklində də təqdim oluna bilər. Şagirdlərin tədqiqat işləri müzakirə olunaraq ümumiləşdirilir.

Ümumiləşdirmə və nəticə aşağıdakı kimi aparıla bilər:

İnsan hüquqlarının müdafiəsi ilə bir sıra qurumlar məşğul olur. Bu qurumlar hər kəsin bərabər hüquqlarını və azadlıqlarını müdafiə edir.

LAYİHƏ

Bu mərhələdə şaxələndirmə üsulundan istifadə oluna bilər. Bu məqsədlə şagirdlərə dərsin əvvəlində nümayiş etdirilmiş sxemi bir qədər də şaxələndirmək olar.

Bu dərsin sonunda şagirdlərə Ⓕ blokunda təqdimat mövzularını təqdim edərək hazırlanması ilə bağlı tövsiyə verməniz məqsədəuyğundur.

Şagirdlərin təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

• Təsviretmə
• Təqdimetmə

| I | II | III | IV |
|---|---|---|---|
| İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini təsvir etməkdə çətinlik çəkir. | İnsan hüquqlarını müdafiə edən qurumların bir qisminin fəaliyyətini təsvir edir. | İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini müəllimin köməyi ilə təsvir edir. | İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə və sistemli təsvir edir. |
| Qurumlar haqqında topladığı məlumatı təqdim etməkdə çətinlik çəkir. | Topladığı məlumatı təqdim edərkən səhvlərə yol verir. | Topladığı məlumatı təqdim edir, nitqi rabitəli deyil. | Topladığı məlumatı faktlara əsaslanmaqla sərbəst və sistemli təqdim edir. |

**Qeyd:** Şagirdlərin növbəti dərsdə təqdimat (təqdimat slayd, albom şəklində ola bilər) hazırlamaları fərdi, yaxud şagird sayından asılı olaraq cütlərdə və yaxud kiçik qruplarda da aparıla bilər. Bunun üçün püşkatma üsulundan da istifadə oluna bilər. Eyni zamanda çalışmaq lazımdır ki, dərslikdə təqdimatın hazırlanması məqsədilə verilmiş mövzulardan istifadə olunmayanı qalmasın. Təqdimatın hazırlanmasına şagirdləri düzgün istiqamətləndirmək olduqca vacibdir. Bunun üçün təqdimatın hazırlanması ardıcıllığı, hər bir şagirdə təqdimat üçün ayrılan zaman (sinifdəki şagirdlərin sayına müvafiq) və qiymətləndiriləcək meyarlar şagirdlərə elə birinci dərs saatında deyilməli və yaxud da elektron lövhədə nümayiş etdirilməlidir. Unutmaq olmaz ki, qiymətləndirmədə obyektivlik olduqca vacibdir.

LAYİHƏ

# Mövzu 8. İqtisadi inkişaf

| | |
|---|---|
| **Alt standart** | 2.3.1. İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir. |
| **Məqsəd** | İqtisadiyyatın inkişafında tələb, təklif, qiymətin rolunu və bir-birindən asılılığını izah edir. |

Motivasiyanı aşağıdakı kimi yarada bilərsiniz:

Ⓐ Beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə “Azərbaycan neft ölkəsidir? Neftdən hansı məhsullar istehsal olunur?” kimi sualı ilə müraciət edə bilərsiniz. Alınan cavabları lövhədə və yaxud flipçartda çəkilmiş aşağıdakı sxemdə qeyd etmək məqsədəuyğundur.




Neftdən istehsal olunan məhsulları qeyd etdikdən sonra “Ölkə iqtisadiyyatının inkişafında neftin nə kimi rolu vardır?” sualına cavab almağa çalışın. Cavabları yönəldici sualların köməyi ilə aşağıdakı tədqiqat sualına yönəldin:

**Tədqiqat sualı:** İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin nə kimi rolu var? Şagirdlərin fərziyyələrini lövhədə qeyd edə bilərsiniz. Sonda bu cavablarla tədqiqatın nəticələrinin müqayisəsi vacibdir.

Tədqiqata başlamaq üçün Ⓒ blokundakı mətni, eyni zamanda Ⓓ blokunda verilmiş cədvəli şagirdlərlə birlikdə müzakirə etməyiniz vacibdir. Bu halda şagirdlərin mövzu ilə bağlı rastlaşdığı yeni anlayışlar onlarda sual doğurmayacaqdır.

Ⓒ blokundakı mətni şagirdlərə qısa mühazirə şəklində də təqdim edə bilərsiniz. Tədqiqat qruplarla və ya kollektivlə aparıla bilər.

Bu mərhələdə Ⓕ blokunda verilmiş tapşırıqlardan istifadə edə bilərsiniz. 2-ci və 3-cü tapşırıqların yerinə yetirilməsi üçün onlara paylama materialı verilməlidir. 8-ci tapşırığın kollektivlə müzakirəsi daha faydalıdır.

Tədqiqatın nəticələri müzakirə olunaraq ümumiləşdirilməlidir. Ümumiləşdirmə və nəticə mərhələsi aşağıdakı kimi aparıla bilər:

İnkişafda olan ölkələr daha da inkişaf etmək üçün güclü siyasət həyata keçirir, iqtisadiyyatını gücləndirir. Tələbat gəlirlərdən asılıdır. Tələbat artdıqca təklif yüksəlir.

**Ev tapşırığı:** Şagirdlərə Ⓕ blokundakı 5-ci tapşırığı yerinə yetirmələrini tapşıra bilərsiniz.

**Qiymətləndirmə:**

- İzahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Qiymət, tələb və təklif anlayışlarını şərh edir, iqtisadiyyatın inkişafında rolunu izah etməkdə çətinlik çəkir. | Qiymət, tələb və təklifin rolunu müəllimin suallarına əsasən izah edir. | Qiymət, tələb və təklifin rolunu, bir-birindən asılılığını tam şərh edə bilmir. | Qiymət, tələb və təklifin rolunu, bir-birindən asılılığını faktlara əsasən izah edir. |



LAYİHƏ

# Mövzu 9. Maddələrin tərkibi və xassələri

| | |
|---|---|
| **Alt standart** | 1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir. |
| **Məqsəd** | Maddələrin fiziki və kimyəvi xassələrini fərqləndirir.<br>Maddələrin tərkibinin atomlardan ibarət olduğunu izah edir. |

Bu standartın reallaşdırılmasına 2 saat ayrılmışdır.

Şagirdlərdə idrakı fəallıq yaratmaq üçün Ⓐ blokunda verilmiş motivasiyanı onlardan birinə oxuda və yaxud özünüz bu haqda danışa bilərsiniz. Ⓑ blokunda göstərilən maddələrin fərqləndirilməsi üçün kömürdən, sudan, xörək duzundan (başqa maddələrdən də) istifadə edə bilərsiniz. Bunun üçün lövhədə aşağıdakı cədvəli qurub şagirdlərin fikirlərini bu cədvəldə yazmaq məqsədəuyğundur. Şagirdlərin cədvələ aşağıdakıları qeyd etdirmələri üçün yönəldici suallardan və sadə təcrübədən istifadə edə bilərsiniz.

| Kömür | Xörək duzu | Su | Oksigen |
|---|---|---|---|
| bərk<br>qara<br>dadsız<br><br>iysiz, suda həll olmur, yanır | bərk<br>ağ<br>suda həll olur<br><br>iysiz, dadı şordur, yanmır | maye, şəffaf<br>iysiz,<br>qızdırıldıqda buxarlanır | qaz, iysiz,<br>rəngsiz, dadsız<br>suda həll olur |

**Tədqiqat sualı:** Maddələri xassələrinə görə necə qruplaşdırmaq olar? Maddələrin ən kiçik hissələri bir-birindən nə ilə fərqlənir?

Şagirdlərin fərziyyələrini "Maddənin xassələri" anlayışı altında birləşdirərək "fiziki və kimyəvi xassə" anlayışları haqqında şagirdlərdə təsəvvür yaratmağa çalışın. Şagirdlərlə birlikdə motivasiya nəticəsində qurulmuş cədvəlin nəticələrinə müvafiq olaraq maddənin fiziki və kimyəvi xassələrini qruplaşdıra bilərsiniz. Ⓓ blokundakı cədvəli slayd şəklində də nümayiş etdirə bilərsiniz. Ⓑ blokundakı praktik tapşırığı şagirdlərin yerinə yetirmələri üçün onlardan 3 nəfəri seçə bilərsiniz. Tapşırığın nəticələrini verilmiş suallar ətrafında ayrı-ayrı müzakirə etmək tövsiyə olunur. Aşağıdakı nəticəyə gəlməyə çalışın:

Maddənin xassələri maddəni təşkil edən hissəciklərin arasındakı boşluqlardan asılıdır. Boşluqlar qazlarda olduğundan onlar daha çox sıxıla bilir. Ən az boşluqlar isə bərk maddələrdədir. Tədqiqat cütlərdə davam etdirilə bilər. Bunun üçün dərsliyin 44-cü səhifəsində verilən növbəti təcrübədən və Ⓕ blokundakı tapşırıqdan istifadə edə bilərsiniz. Tapşırıqları eyni olan bir cütlük digər cütlüyün işini qiymətləndirə bilər. Bu tapşırıqlardan istifadə 2-ci dərs saatında nəzərdə tutulur.

Şagirdlərin müşahidələrini yazmaq üçün lövhədə aşağıdakı cədvəli çəkmək məqsədəmüvafiqdir:

LAYİHƏ

| IV təcrübə | V təcrübə |
|---|---|
| Qənd suda həll oldu. Su şirindir. Biz qənd hissəciklərini görmürük. | Rəngli kristal həll olub suyu rəngləndirdi. Biz onun hissəciklərini görmürük. |

Maddənin hissəciklərinin görünməməsinin səbəbini şagirdlərlə müzakirə edərək tədqiqat davam etdirilməlidir.

Növbəti addım Ⓒ blokunda verilmiş atomla bağlı mətnlə davam etdirilir. Bu hissə fasiləli oxu üsulu ilə oxunur və müxtəlif maddələrin molekullarının təsvirləri müzakirə olunur. Ⓑ blokundakı növbəti tapşırıq yerinə yetirilir. Ⓓ bloku şagirdlərin nəzərinə çatdırılır.

Ⓕ blokundakı 2 və 5-ci tapşırıqlar qruplarda müzakirə oluna bilər.

Ümumiləşdirmə və nəticə aşağıdakı kimi aparıla bilər.

- Maddələr xassələrinə görə müxtəlif olurlar.
- Maddələrin xassələri onları təşkil edən hissəciklərdən asılıdır.
- Maddələr atomlardan təşkil olunmuşdur.
- Atomlar maddələrdə eyni və ya müxtəlif ola bilir.
- Atomlar birləşib molekulları əmələ gətirir.
- Atom və molekullar daim hərəkətdədir.

Ⓕ blokundakı 6-cı tapşırıqdan dərsin yaradıcı tətbiqetmə mərhələsində istifadə etmək məqsədəuyğundur. Ⓕ blokundakı 1-ci tapşırıq şagirddən müəyyən qədər araşdırma tələb edir. Bu baxımdan evdə yerinə yetirilməsi məsləhətdir.

**Qiymətləndirmə:**

- Fərqləndirmə
- İzahetmə

| I | II | III |
|---|---|---|
| Maddələrin xassələrini sadalayır, fərqləndirməkdə çətinlik çəkir. | Maddələrin xassələrini müəllimin köməyi ilə fərqləndirir. | Maddələrin xassələrini təcrübələr əsasında fərqləndirir. |
| Fikirlərini izah etməkdə çətinlik çəkir. | Faktları dəqiq olmasa da, əsas fikri izah edir. | Fikirlərini faktlara əsaslanaraq sərbəst izah edir. |

LAYİHƏ

# Mövzu 10. Elementlər

| **Alt standart** | 1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir. |
|---|---|
| **Məqsəd** | Element anlayışını atom və maddə anlayışlarından fərqləndirir. |

Ⓐ Motivasiya məqsədilə şagirdlərə MİMİO qurğusu vasitəsilə (interaktiv lövhə və ya adi lövhədə), yaxud flipçartda aşağıdakı krossvordu nümayiş etdirə bilərsiniz. Əgər krossvordu slaydda nümayiş etdirəcəksinizsə, növbəti slayda krossvordun doldurulmuş formasını da sala bilərsiniz. Krossvord MİMİO qurğusu vasitəsilə də təqdim oluna bilər.

Krossvord təqdim olunur:
1. Maddənin halı
2. Qiymətli metal
3. Suyun təşkil olunduğu atom
4. Ən kiçik hissəcik
5. Maddələrin tərkib hissəsi
6. Havanın tərkibindəki qaz
7. Müxtəlif atomlardan təşkil olunmuş maddə

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | m | a | y | e | | | |
| | | q | ı | z | ı | l | | | |
| h | i | d | r | o | g | e | n | | |
| | | | a | t | o | m | | | |
| | | | m | o | l | e | k | u | l |
| o | k | s | i | g | e | n | | | |
| | n | i | ş | a | s | t | a | | |

"Element" anlayışı müəyyən edilərək aşağıdakı sual ətrafında tədqiqat aparılmalıdır: Element nədir və onlar bir-birindən necə fərqlənir?

Ⓒ blokundakı mətn və digər məlumat mənbələrindən (internet resurslarından) istifadə etməklə element və atom anlayışları arasındakı əlaqə araşdırılır. Araşdırma qruplarda və yaxud cütlərdə davam etdirilə bilər. Bunun üçün Ⓕ blokundakı tapşırıqlardan istifadə etmək məqsədəuyğundur. 1.1.1. standartının tələbini aşmamaq şərtilə bu tapşırıqlara uyğun tapşırıqlar da hazırlaya bilərsiniz.

Səhifə 43-də verilmiş şəkillərin nümunəsində cütlər metallar və qeyri-metalların xassələrini də müəyyənləşdirə bilərlər.

Şagirdlərin təqdimatının nəticələri dinlənildikdən və müzakirə olunduqdan sonra aşağıdakı kimi ümumiləşdirmə aparıla bilər:

• Elementlər atomlardan təşkil olunmuşdur.
• Kimyəvi elementlər metallar və qeyri-metallara bölünür.
• Maddələr elementlərdən təşkil olunmuşdur.

Ev tapşırığı kimi şagirdlərə yodun xassələri və əhəmiyyəti haqqında məlumat toplamaq tapşırıla bilər.

**Qiymətləndirmə**:

• Fərqləndirmə

| I | II | III |
|---|---|---|
| Element və atomları fərqləndirməkdə çətinlik çəkir. | Atomların elementləri, elementlərin maddələri əmələ gətirməsini müəllimin köməyi ilə fərqləndirir. | Modellərdə eyni elementlərdən və müxtəlif elementlərdən təşkil olunan maddələri fərqləndirir. |

LAYİHƏ

# Mövzu 11. Bir maddədən yeni maddə alına bilərmi?

| Alt standart | 1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir. |
|---|---|
| Məqsəd | Bir maddədən yeni maddənin alınmasının kimyəvi dəyişmələr nəticəsində baş verdiyini izah edir. |

Mövzuya (A) blokundakı motivasiya ilə başlayıb, ($B_1$) bloku ilə davam edə bilərsiniz.

($B_1$) blokundakı təcrübəni aparmağı sinifdəki şagirdlərdən bir neçəsinə tapşıra bilərsiniz. Təcrübənin nəticələrini dərslikdəki sual əsasında müzakirə etməklə lövhədə aşağıdakı cədvəli çəkməyiniz məqsədəuyğundur:

| Təcrübə | Dəyişiklik |
|---|---|
| I | parçalandı |
| II | əridi |
| III | xırdalandı |

Təcrübələrin nəticələrinə əsasən şagirdləri yeni maddənin alınmadığı fikrinə yönəltməklə (C) blokundakı mətni onlara oxutdurub müzakirə təşkil edə bilərsiniz. Müzakirədən sonra "Bir maddədən yeni maddə necə alınır?" tədqiqat sualına cavab axtarmağa ($B_2$) blokundakı təcrübələrlə başlamaq olar.

($B_2$) blokundakı təcrübələri yerinə yetirmək üçün şagirdlərə nəzarət etməyiniz vacibdir. Bu zaman təhlükəsizlik qaydalarına əməl etmələri üçün şagirdlər təlimatlandırılmalıdırlar. ($B_2$) blokundakı təcrübənin nəticələri də şagirdlərlə müzakirə olunaraq lövhədə çəkilmiş cədvəldə qeyd olunmalı və ümumiləşdirilməlidir.

| Maddə | Dəyişiklik |
|---|---|
| ***Kartof*** | ***göy rəngə boyandı*** |
| ***Kağız*** | ***qaraldı, kül oldu*** |
| ***Şəkər*** | ***kömürləşdi*** |

Sonrakı tədqiqat (F) blokundakı tapşırıqlar əsasında kollektivdə davam etdirilə bilər. Bu məqsədlə 1, 2 və 4-cü tapşırıqlardan istifadə edə bilərsiniz

Şagirdlərin tədqiqatının nəticələrinin müzakirə olunması və ümumiləşdirilməsi vacibdir.

(F) blokundakı 3-cü tapşırığı şagirdlərin evdə yerinə yetirmələri tövsiyə olunur.

LAYİHƏ

**Qiymətləndirmə:**

- İzahetmə

| I | II | III |
|---|---|---|
| Bir maddədən yeni maddənin alınmasının kimyəvi dəyişiklik olduğunu şəkillərə əsasən izah edir. | Bir maddədən yeni maddənin alınmasının kimyəvi dəyişiklik olduğunu müəllimin köməyi ilə izah edir. | Bir maddədən yeni maddənin alınmasının kimyəvi dəyişiklik olduğunu təcrübələrə əsasən izah edir. |

LAYİHƏ

# Mövzu 12. Saf maddələr və qarışıqlar

| | |
|---|---|
| **Alt standart** | 1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir. |
| **Məqsəd** | Saf maddələrlə qarışıqları fərqləndirir, bu fərqi onların daxili quruluşu ilə əlaqələndirir. |

Mövzuya (A) blokunda verilmiş suallarla başlamaq olar. Şagirdlərin fikirlərini yönəldici sualların köməyi ilə şəkərin suda həll olduğu, şəkər molekullarının su molekulları içərisində əridiyi, lakin hər birinin öz xassələrini saxladığı fikrinə yönəltməyə çalışın. "Belə maddələri biz necə adlandırırıq, maddələr arasındakı fərqin onların daxili quruluşu ilə nə kimi əlaqəsi vardır?" suallarına cavab axtarmaq məqsədilə (C) blokundakı mətni (B) blokuna qədər şagirdlərə oxutdurub müzakirə edərək növbəti mərhələyə keçə bilərsiniz. Bu mərhələdə verilmiş təcrübələri şagirdlər $(D_1)$ bloku-na əsasən cütlərlə yerinə yetirərək nəticələrini A4 vərəqində təqdim edə bilərlər. Təcrübələrin nəticələrini yekunlaşdırmaq üçün aşağıdakı cədvəli çəkib tapşırığı yerinə yetirmək tövsiyə olunur:

| Təcrübə | İstifadə olunan üsul | Nəticə |
|---|---|---|
| I | çökdürmə | dəmir tozu çökür, kəpək suyun üzündə qalır |
| II | süzmə | qum suyun dibinə çökür, xörək duzu həll olur |
| III | maqnitlə ayırma | maqnit dəmir tozunu özünə çəkir, kükürd tozu qalır. |

Bu zaman $(D_1)$ bloku slayd şəklində təqdim oluna bilər.

Tədqiqat nəticələr müzakirə olunduqdan sonra cütlərdə və yaxud qruplarda (F) blokundakı tapşırıqlar əsasında davam etdirilə bilər. (C) blokunun oxunması ilə aparılan təcrübələrin nəticələrinin elmi izahı şagirdlərə çatdırılır. Tədqiqatın nəticələri ümumiləşdirilərkən tədqiqat sualına qayıdılmalıdır.

**Ev tapşırığı:** Evdə istifadə etdiyiniz maddələrin adlarını cədvələ yazın, tərkibini müəyyənləşdirin.

- Nümunə:

| Maddə | Maddənin tərkibi |
|---|---|
| xörək duzu | saf maddə |

Ev tapşırığı olaraq (F) blokundakı 3-cü tapşırıq da verilə bilər.

**Qiymətləndirmə:**

- Fərqləndirmə



LAYİHƏ

• Əlaqələndirmə

| I | II | III | IV |
|---|---|---|---|
| Saf maddə və qarışıqları fərqləndirir, bu fərqi izah etməkdə çətinlik çəkir. | Saf maddə və qarışıq maddələri fərqləndirərkən səhvlərə yol verir. | Saf maddə və qarışıqları təcrübələrlə fərqləndirir, sualların köməyi ilə əlaqələndirir. | Saf maddə və qarışıqları bir-birindən fərqləndirir, onların daxili quruluşu ilə əlaqələndirir. |

***Müəllim üçün qeyd:*** 13-cü mövzudakı təcrübəyə hazırlıq görülməlidir.

LAYİHƏ

# Mövzu 13. Qeyri-üzvi və üzvi maddələr

| **Alt standart** | 1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir. |
|---|---|
| **Məqsəd** | Qeyri-üzvi və üzvi maddələrin fərqini izah edir. |

Şagirdlərdə idrakı fəallığı ya Ⓐ blokundakı suala əsasən, ya da aşağıdakı kimi yarada bilərsiniz. Lövhədə müxtəlif maddələrin adları yazıla bilər: su, zülal, duz, yağ, dəmir, qızıl və s. Şagirdlər “Maddələrdən hansılara yalnız canlı təbiətdə rast gəlinir?, “Maddələri bir-birindən daha necə fərqləndirmək olar?” sualları ətrafında öz fikirlərini deyə bilərlər. Şagirdlərin cavabları lövhədə qeyd olunaraq “Nəyə görə...? Daha necə...?” suallarına əsasən müzakirə aparıla bilər.

Ⓒ blokundakı yeni məlumatlar Ⓑ blokunadək şagirdlər tərəfindən oxunmaqla müzakirə edilməlidir.

Ⓒ blokunda bəzi üzvi maddələrin süni yolla sintez olunması ilə bağlı məlumat şagirdlərlə müzakirə oluna bilər. Dərslikdə bununla bağlı şəkillər də yer alır. Bu qidaların süni yolla əldə edilməsinin səbəbi dünya əhalisinin sayının artması və buna görə də qida çatışmazlığının yaranmasıdır.

Müzakirə zamanı şagirdlərin biologiya fənnindən əldə etdikləri bilik və bacarıqlara da istinad olunmalıdır.

Ⓑ blokundakı ikinci təcrübənin müəllim tərəfindən aparılması tövsiyə olunur. Təcrübənin nəticələri üzrə müzakirə aparılmalıdır.

Şagirdlər qruplarda tədqiqat işini davam etdirə bilərlər. Tədqiqat üçün Ⓕ blokundakı tapşırıqlardan istifadə nəzərdə tutulmuşdur. Standarta uyğun digər tapşırıqlar da hazırlaya bilərsiniz.

Tədqiqatın nəticələri müzakirə olunaraq ümumiləşdirilmə aparılmalıdır.

Ⓕ blokundakı 6-cı tapşırığın evdə yerinə yetirilməsi məqsədəuyğun hesab olunur.

**Qiymətləndirmə:**

- İzahetmə

| I | II | III |
|---|---|---|
| Qeyri-üzvi və üzvi maddələri sadalayır, fərqini izah etməkdə çətinlik çəkir. | Qeyri-üzvi və üzvi maddələrin tərkibinə görə fərqini müəllimin köməyi ilə izah edir. | Təcrübələrlə qeyri-üzvi maddələri üzvi maddələrdən ayırıb onların fərqini izah edir. |

LAYİHƏ

# Mövzu 14. Üzvi maddədən canlıya

| | |
|---|---|
| **Alt standart** | 1.2.1. İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir. |
| **Məqsəd** | İnsan hüceyrələrinin quruluşunu digər canlıların hüceyrələri ilə müqayisəli izah edir. |

Şagirdlərdə idraki fəallığı ya Ⓐ blokunda verilmiş suallara əsasən, ya da aşağıdakı kimi yaratmaq olar:

MİMİO qurğusu vasitəsilə (adi lövhə də ola bilər) qeyri-üzvi maddə, üzvi maddə, hüceyrə, orqanizm sözləri qeyri-ardıcıl verilir və şagirdlərə belə bir sualla müraciət olunur:

– Siz bunları ardıcıl necə düzə bilərsiniz?

"Müxtəlif canlıların tərkibini təşkil edən maddələr və hüceyrələr bir-birindən necə fərqlənir?" tədqiqat sualı ətrafında fərziyyələr dinlənilir və müzakirə olunur. Müxtəlif canlıların hüceyrələrinin araşdırılması Ⓒ blokuna əsasən davam etdirilir. Bu mərhələdə biologiya fənninin 1.1.2. standartına da istinad olunması məqsədəuyğundur.

Ⓒ blokundakı mətnə əsasən şagirdlərə Ⓕ blokundakı tapşırıqları qrupda yerinə yetirmələri tapşırıla bilər. Beləliklə də, şagirdlər müstəqil olaraq mətni həm araşdıracaq, həm də verilən suallara cavab axtarmış olacaqlar.

Ⓕ blokundakı 2 və 3-cü tapşırıqların yerinə yetirilməsi üçün şagirdlərə Biologiya fənnindən əldə etdikləri bilik və bacarıqlara istinad etmələri ilə bağlı istiqamət verilməlidir. Həmin tapşırıqlarla bağlı şagirdlərə paylama materialı da verilə bilər.

Şagirdlərin tədqiqat işlərinin nəticələri müzakirə olunaraq ümumiləşdirilməlidir. Bu məqsədlə səh. 53 Ⓒ blokunda verilmiş son abzasla dərsi ümumiləşdirmək olar.

Ⓕ blokundakı I və IV tapşırıq yaradıcı tətbiqetmə mərhələsində kollektivlə birgə yerinə yetirilə bilər.

**Qiymətləndirmə:**

- İzahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Hüceyrələrin quruluşunu tabloya əsasən izah etməkdə çətinlik çəkir. | Hüceyrələrin quruluşunu izah edərkən səhvlərə yol verir. | Bitki və heyvan hüceyrələrinin quruluşunu müəllimin köməyi ilə izah edir. | İnsan hüceyrələrinin quruluşunu digər canlıların hüceyrələri ilə müqayisəli izah edir. |

LAYİHƏ

# Mövzu 15. İnsan – təbiətin ali varlığı

| | |
|---|---|
| **Alt standart** | 1.2.1. İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir. |
| **Məqsəd** | İnsanı təbiətin ali varlığı kimi müəyyən edir. |

Motivasiyanı Ⓐ blokundakı suala əsasən və yaxud aşağıdakı kimi yaratmaq olar.

Anlayışın çıxarılması üsulundan istifadə etməklə:




Anlayış müəyyən olunduqdan sonra tədtqiqat aşağıdakı sual ətrafında aparılmalıdır:

İnsan təbiətə necə təsir göstərir?

Tədqiqat sualının ətrafında müzakirələr keçirilərək insanın təbiətə “müsbət” və “mənfi” təsiri lövhədə qeyd oluna bilər. Sonrakı mərhələdə şagirdlərlə birlikdə Ⓒ blokunda verilmiş yeni məlumatlar araşdırılaraq müzakirə oluna bilər. Ⓑ blokundakı tapşırıq şagirdlərlə müzakirə olunmalıdır. Bu mərhələdə elektron təqdimatdan, Qələbə dərslərindən istifadə etmək olar. (tipii.edu.az) Tədqiqat Ⓕ blokundakı tapşırıqlara əsasən də aparıla bilər. Ⓕ blokundakı 2-ci tapşırıq həm qrup, həm də fərdi qaydada yerinə yetirilə bilər. Bu blokda verilmiş tapşırıqları yerinə yetirmək üçün şagirdləri resurslarla təmin etmək lazımdır. Bu resurslara “Qırmızı kitab”, “Yaşıl paket” CD, “Azərbaycan heyvanlar aləmi” kitabı aid oluna bilər.

Şagirdlərin tədqiqat işlərinin nəticələri müzakirə olunmalı və tədqiqat sualına əsasən ümumiləşdirmə aparılmalıdır. Bu mərhələdə ətraf mühitin çirklənməsinə və mühafizəsinə dair videogörüntü nümayiş etdirilə bilər.

Ev tapşırığı kimi şagirdlərə Ⓕ blokundakı 5-ci tapşırığı verə bilərsiniz.

**Qiymətləndirmə:**

• Şərhetmə

| I | II | III |
|---|---|---|
| İnsanın ali varlıq olduğunu şərh etməkdə çətinlik çəkir. | İnsanın ali varlıq olduğunu müəllimin köməyi ilə şərh edir. | İnsanın təbiətin bir hissəsi olduğunu faktlarla şərh edir. |

LAYİHƏ

# Mövzu 16. Sağlamlığın şərtləri

| | |
|---|---|
| **Alt standart** | 4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir. |
| **Məqsəd** | Sağlamlığın şərtlərini fərqləndirir. |

Ⓐ blokundakı motivasiyaya əsasən şagirdlərin sağlamlıq haqqında düşündükləri aşkara çıxarılır. Məqsəd onların fikirlərini sağlamlığın şərtlərinə yönəltməkdən ibarətdir.

Dərs boyu 4.1.1. standartı reallaşdırılmalı olduğundan tədqiqat da bu standartın reallaşdırılmasına yönəlməlidir. Bu standartın reallaşdırılması 18 və 19-cu mövzularda da davam etdiriləcəkdir.

Motivasiyanı aşağıdakı formada da yarada bilərsiniz:

Beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə aşağıdakı kimi müraciət oluna bilər:

– Sağlam həyat tərzi nədir?

Şagirdlərin fikirləri lövhədə qeyd olunmalı, tədqiqat aşağıdakı sual ətrafında aparılmalıdır:

Sağlam həyat tərzi sürmək üçün sağlamlığın hansı şərtlərinə əməl olunmalıdır?

Sağlamlığın Ⓓ blokunda verilmiş şərtlərini şagirdlərlə müzakirə etmək məsləhət görülür. Hər bir bəndin müzakirəsi vacibdir.

Tədqiqat qruplarda davam etdirilə bilər. Bu məqsədlə Ⓕ blokundakı 4-cü tapşırıq qruplara verilə bilər. Bu tapşırıqda birinci sütunda verilənləri dəyişməklə digər qruplar üçün də müvafiq tapşırıqlar hazırlaya bilərsiniz. Tədqiqatı aparmaq üçün ziqzaq üsulundan da istifadə etmək mümkündür.

Mövzunun tədrisi zamanı şagirdlərə sağlamlığın yalnız fiziki deyil, eyni zamanda emosional və mənəvi aspektlərinin də olduğunu xatırladın.

Tədqiqatın nəticələri müzakirə olunaraq ümumiləşdirilməlidir.

Ümumiləşdirmə və nəticə mərhələlərində şaxələndirmə üsulundan, sağlamlığın şərtlərinə əməl olunma ilə bağlı videoçarxdan istifadə oluna bilər.

Ⓕ blokundakı 5-ci tapşırığı şagirdlər evdə yerinə yetirə bilərlər.

**Qiymətləndirmə:**

- Fərqləndirmə

| I | II | III | IV |
|---|---|---|---|
| Sağlamlığın şərtlərini sadalayır, fərqləndirməkdə çətinlik çəkir. | Sağlamlığın şərtlərinin bir qismini fərqləndirir. | Sağlamlığın şərtlərini müəllimin suallarına əsasən fərqləndirir. | Sağlamlığın şərtlərini nümunələr əsasında sərbəst fərqləndirir. |

LAYİHƏ

# Mövzu 17. Gigiyena sağlamlığın şərtidir

| | |
|---|---|
| **Alt standart** | 4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir. |
| **Məqsəd** | Gigiyena qaydalarına əməl olunmasını sağlamlığın şərti kimi şərh edir. |

Şagirdlərin Ⓐ blokundakı suallara verdikləri cavabları lövhədə qeyd etmək olar. Bunun üçün şaxələndirmə üsulundan da istifadə edə bilərsiniz.




Motivasiya aşağıdakı kimi də yaradıla bilər:

Beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə "Sağlam bədəndə sağlam ruh olar deyimini necə izah edə bilərsiniz" sualı ilə müraciət oluna bilər.

**Tədqiqat sualı:** Sağlam olmaq üçün hansı gigiyena qaydalarına əməl olunmalıdır? Şagirdlərin cavablarının lövhədə qeyd olunması tövsiyə olunur.

Tədqiqata başlamazdan öncə Ⓒ blokundakı mətn fasiləli oxu üsulundan istifadə olunmaqla oxunmalı, müzakirə edilməli, gigiyena qaydalarına əməl olunmasının insanların həyatındakı vacibliyi xüsusi vurğulanmalıdır. Ⓑ blokundakı tapşırıq müzakirə olunmalı və lövhədə bununla bağlı qeydlər aparılmalıdır. Bu tapşırıq qruplarda da müzakirə olunaraq siyahı tərtib oluna bilər. Tədqiqatın qrupla aparılması planlaşdırılarsa F blokundakı 2-ci və 4-cü tapşırıqlardan istifadə etmək olar. Qrup işlərinin müzakirəsi zamanı 2-ci tapşırığı yerinə yetirən qrup iştirakçılarının tərtib etdikləri qaydalara sinifdəki şagirdlərin nə dərəcədə əməl etdikləri müzakirə olunmalı və vacib olan məsələlər xüsusi qeyd edilməlidir.

Ümumiləşdirmə aşağıdakı kimi aparıla bilər:

Gigiyena qaydalarına əməl etmək sağlamlığın əsas şərtlərindən biridir. Ona görə də həm şəxsi, həm də ümumi gigiyena qaydalarına əməl olunmalıdır. Yadınızdan çıxarmayın ki, səliqəli şagirdin məktəbi də təmiz olar.

Bu mərhələdə videoçarx da nümayiş etdirilə bilər.

**Ev tapşırığı:**

Şagirdlərə "Səliqəli şagirdin məktəbi də təmiz olar" mövzusunda esse (elektron təqdimat da hazırlana bilər) yazmaq tapşırıla bilər. Növbəti dərsdə motivasiyanı bu tapşırığın nəticəsinə əsasən yarada bilərsiniz.

LAYİHƏ

**Qiymətləndirmə:**
• Şərhetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Gigiyena qaydalarını sadalayır, şərh etməkdə çətinlik çəkir. | Gigiyena qaydalarının bir qismini şərh edir. | Gigiyena qaydalarının əhəmiyyətini sualların köməyi ilə şərh edir. | Gigiyena qaydalarını nümunələrə əsasən şərh edir. |

# Mövzu 18. Yoluxucu xəstəliklərdən qorunma yolları

| | |
|---|---|
| **Alt standart** | 4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir. |
| **Məqsəd** | Yoluxucu xəstəliklərdən qorunmağı sağlamlığın şərti kimi şərh edir. |

Ⓐ blokundakı mətnin oxunması ilə motivasiya yarada bilərsiniz. Şagirdlərin cavablarını lövhədə yazmaqla yoluxucu xəstəliklərlə bağlı fikri əsas götürüb “Yoluxucu xəstəliklər hansılardır və onlardan necə qorunmaq olar?” tədqiqat sualı əsasında müzakirə aparıla bilər:

Motivasiyanı aşağıdakı kimi də yaratmaq olar:

– İnsan Covid-19 virusuna necə yoluxur?

– Bu virusdan qorunmaq üçün hansı qaydalara əməl olunmalıdır?

Bu halda tədqiqat “Başqa hansı yoluxucu xəstəliklər var və onlardan necə qorunmaq olar?” sualı ətrafında aparılmalıdır.

Tədqiqatın aparılması üçün şagirdləri 3 qrupa ayırmaqla Ⓕ blokundakı 5-ci tapşırığı yerinə yetirmələrini tapşıra bilərsiniz. Qruplardan biri virusların, ikincisi bakteriyaların, üçüncüsü isə heyvanların törətdikləri yoluxucu xəstəliklər, onlarla yoluxma yolları və həmin xəstəliklərdən qorunma üsulları ilə bağlı araşdırma apara bilərlər. Bunun üçün şagirdlərə Biologiya fənni üzrə əldə etdikləri bilik və bacarıqlardan istifadə etmələri ilə bağlı tövsiyə verilə bilər. Sinfin səviyyəsinə müvafiq olaraq yuxarıda qeyd olunan tapşırığı bir qrupa verib, digər qruplara isə Ⓕ blokundakı 2-ci, 3-cü, 4-cü, 6-cı tapşırıqları icra etmək tapşırıla bilər.

Lakin bütün hallarda tədqiqatın aparılması üçün şagirdlərə yoluxucu xəstəliklər və onlardan qorunma yolları haqqında paylama materialının verilməsi də vacibdir.

LAYİHƏ

Şagirdlərin tədqiqat işlərinin nəticələri əsasında müzakirə təşkil olunaraq nəticələr çıxarılmalı və ümumiləşdirmə aparılmalıdır. Ümumiləşdirmə zamanı tədqiqat sualına və fərziyyələrə qayıdılmalıdır. Bu mərhələdə şaxələndirmə üsulundan istifadə oluna bilər.




Yaradıcı tətbiqetmə üçün (F) blokundakı 7-ci tapşırıqdan istifadə etmək olar. Bu tapşırıq cütlərdə və yaxud qruplarda da icra oluna bilər.

Ev tapşırığı kimi olaraq şagirdlərə peyvəndlərin kəşfi ilə bağlı məlumat toplamaq tapşırıla bilər.

**Qiymətləndirmə:**

• Şərhetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Yoluxucu xəstəlikləri sadalayır, onlardan qorunma yollarını şərh etməkdə çətinlik çəkir. | Yoluxucu xəstəliklərdən qorunma yollarını şərh edərkən səhvlərə yol verir. | Müxtəlif yoluxucu xəstəliklərdən qorunma yollarını müəllimin köməyi ilə şərh edir. | Müxtəlif yoluxucu xəstəlikləri qruplaşdırır, onlardan qorunma yollarını şərh edir. |



LAYİHƏ

# Mövzu 19. Təhlükəsizliyin təmin olunması

| | |
|---|---|
| **Alt standart** | 4.2.1. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir.<br>4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir. |
| **Məqsəd** | Evdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir.<br>İctimai yerlərdə yarana biləcək fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir. |

**Təlim forması:** Kollektiv iş, qruplarla iş, fərdi iş

**Təlim üsulu:** Beyin həmləsi, şaxələndirmə

**Resurslar:** Dərslik, videoçarx, iş vərəqləri, stiker, flipçart, "Özünə və başqalarına kömək etməyi bacar" kitabçası

**İnteqrasiya:** Az.d.: 2.2.1.

Mövzuya başlamaq üçün Ⓐ blokunda verilmiş 1-ci sualla şagirdlərə müraciət oluna bilər. Şagirdlərin cavablarının lövhədə və yaxud flipçartda qeyd olunması məqsədəuyğundur. 2-ci sualın ətrafında tədqiqat aparılmalıdır. Tədqiqat Ⓕ blokundakı tapşırıqlara müvafiq olaraq qruplarda aparıla bilər. Bunun üçün şagirdlərə ictimai yerlərdə, məişətdə baş verə biləcək təhlükələrlə bağlı paylama materialı verilməsi məqsədəuyğundur. Şagirdlər dərslikdəki Ⓒ və Ⓓ bloklarını araşdırmaqla və paylama materiallarından istifadə etməklə Ⓕ blokundakı tapşırıqları yerinə yetirə bilərlər. Ⓕ blokundakı 6-cı tapşırığın düzgün cavablarını slayd formasında hazırlayıb bu tapşırığın şagirdlər tərəfindən təqdim olunmasından sonrakı müzakirəsində müqayisə məqsədilə istifadə edə bilərsiniz.

Sinfinizin səviyyəsini, eyni zamanda resurslarınızı nəzərə almaqla reallaşdırılacaq standartları aşmamaq şərtilə Ⓕ blokundakı tapşırıqlara müvafiq daha asan və yaxud nisbətən çətin tapşırıqlar da hazırlayıb tədqiqatın aparılması mərhələsində istifadə edə bilərsiniz.

Tədqiqat işlərinin nəticələri müzakirə olunmalı və ümumiləşdirilməlidir. Ümumiləşdirmə apararkən nəzərə alın ki, 4.3.1. məzmun standartı bu mövzuda tam deyil, qismən reallaşdırılmışdır. Növbəti mövzularda bu standarta yenə də müraciət olunacaqdır.

Ümumiləşdirmə aşağıdakı kimi aparıla bilər:

Həm məişətdə, həm də ictimai yerlərdə şəxsi təhlükəsizliyinizə məsuliyyətlə yanaşın. Yaranmış təhlükə zamanı davranış qaydalarına əməl edin. Bu davranış qaydalarına əməl etməklə hər kəsə yardım etmiş olarsınız.

Yaradıcı tətbiqetmə üçün şagirdlərə rəngli stikerlər paylayıb, yaşayış yerinin yaxınlığında baş verən yanğınla bağlı videoçarx nümayiş etdirməklə onlardan bu

LAYİHƏ

hadisə zamanı necə davranacaqlarını yazmalarını tapşırın. Hər bir şagird 1 davranış qaydası yazmalıdır. Şagirdlər davranış qaydalarını yazdıqları rəngli stikerləri flipçartda çəkilmiş sxemin kənarlarına yapışdırmalıdırlar.




Tapşırığın nəticələrini əks etdirən bu plakatı 20-ci mövzunun tədrisində istifadə etmək üçün saxlamanız tövsiyə olunur. Bunun istifadəsinə dair tövsiyə həmin mövzunun tədrisində göstərilmişdir.

Ev tapşırığı kimi şagirdlərə sinif yoldaşlarının məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına əməl etmələri üçün simvol yaratmalarını tapşıra bilərsiniz.

**Qiymətləndirmə:**
- Fərqləndirmə
- İzahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükələri sadalayır, təhlükəsiz davranış qaydalarını fərqləndirməkdə çətinlik çəkir. | Təhlükəsiz davranış qaydalarını şərh edərkən səhvlərə yol verir. | Təhlükəsiz davranış qaydalarını müəllimin köməyi ilə fərqləndirir. | Davranış qaydalarını yarana biləcək təhlükəyə uyğun fərqləndirir. |
| İctimai yerlərdə yarana biləcək fövqəladə hadisələri sadalayır, davranış qaydalarını izah etməkdə çətinlik çəkir. | Konkret fövqəladə hadisə zamanı tələb olunan davranış qaydalarını şərh edərkən səhvlərə yol verir. | Müxtəlif fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarının bir qisimini izah edir. | Müxtəlif fövqəladə hadisələr zamanı müvafiq davranış qaydalarını izah edir. |



LAYİHƏ

# Mövzu 20. Təbiətdəki təhlükəli hadisələrdən qorunaq

| | |
|---|---|
| **Alt standart** | 4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir. |
| **Məqsəd** | Təbii fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir. |

Dərsə Ⓐ blokunda verilmiş motivasiya ilə başlamaq olar. Bunun üçün lövhədə BİBÖ cədvəli çəkmək məqsədəuyğundur. Şagirdlərin təbii fövqəladə hadisələr haqqında bildikləri cədvəlin I, öyrənmək istədikləri davranış qaydaları II sütununda, öyrəndikləri isə aparılacaq tədqiqat işlərinin nəticələrinin müzakirəsindən sonra ümumiləşdirmə və nəticə mərhələsində III sütunda yazılmalıdır.

Tədqiqat "Təbii fövqəladə hadisələr zamanı hansı davranış qaydalarına əməl olunmalıdır" sualı ətrafında aparılmalıdır. Şagirdlər tədqiqat işlərini qruplarda apara bilərlər. Bunun üçün dərslikdəki Ⓒ bloku araşdırılmaqla Ⓕ blokundakı 1-ci, 2-ci və 3-cü tapşırıqlar yerinə yetirilə bilər. 2-ci tapşırığı 2 hissəyə ayırmaqla çovğun və zəlzələ bir qrupa, ildırım çaxması və sel başqa bir qrupa tapşırıla bilər.

Tədqiqatın nəticələri müzakirə olunaraq ümumiləşdirilməlidir. Bu zaman şagirdlərin araşdırdıqları problemlə bağlı öyrəndiklərini BİBÖ cədvəlinin 3-cü sütununa əlavə etməyi unutmayın.

Ev tapşırığı kimi şagirdlərə güclü istilər zamanı davranış qaydalarına dair məlumat toplamaları tapşırıla bilər. Məlumat slayd və yaxud referat şəklində də hazırlana bilər. Növbəti dərsdə şagirdlərdən birinin hazırladığı slayd təqdimatını və yaxud referatı texnogen fövqəladə hadisələrlə əlaqələndirib motivasiya yarada bilərsiniz.

**Qiymətləndirmə:**

• İzahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Davranış qaydalarının bir qismini izah edir. | Konkret fövqəladə hadisə zamanı tələb olunan davranış qaydalarını izah edərkən səhvə yol verir. | Davranış qaydalarını müəllimin suallarının köməyi ilə izah edir. | Davranış qaydalarını nümunələrlə fövqəladə hadisəyə müvafiq izah edir. |

LAYİHƏ

# Mövzu 21. Texnogen mənşəli qəzalardan qorunaq

| | |
|---|---|
| **Alt standart** | 4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir. |
| **Məqsəd** | Texnogen mənşəli qəzalar zamanı tələb olunan davranış qaydalarını izah edir. |

Dərsə Ⓐ blokundakı motivasiya ilə başlaya bilərsiniz. Tədqiqat dərslikdə motivasiyanın sonundakı suala əsasən aparılır. Verilmiş suala əsasən şagirdlərin saydıqları davranış qaydalarını lövhədə çəkdiyiniz cədvəlin müvafiq sütununa yazmanız məqsədəuyğundur.

| Radiasiya çirklənməsi zamanı davranış qaydaları | Yanğın zamanı davranış qaydaları | Yol qəzaları zamanı davranış qaydaları |
|---|---|---|
| | | |

Bu cədvələ yazacağınız fikirlər şagirdlərin fərziyyələridir. Sonda bu cavablarla şagirdlərin tədqiqatının nəticələrinin müqayisəsi vacibdir.

Tədqiqat qruplarda aparıla bilər. Bunun üçün dərsliyin Ⓒ blokundakı mətn araşdırılmalı, Ⓕ blokundakı 1, 3, 5 və 7-ci tapşırıqlar yerinə yetirilməlidir. 1-ci tapşırığın icrası üçün şagirdlərə epidemiyalar haqqında paylama materialı verməniz vacibdir. Tədqiqatın nəticələri müzakirə olunmalı və ümumiləşdirilməlidir. Ümumiləşdirmə aşağıdakı kimi aparıla bilər:

Texnogen mənşəli qəzalarla hər an rastlaşa bilərik. Bu hadisələr zamanı öyrəndiyiniz davranış qaydaları sizin köməyinizə çatacaq. Bu mərhələdə şaxələndirmə üsulundan və linkdən istifadə oluna bilər. https://youtu.be/33oWOF5g7LM

Yaradıcı tətbiqetmə mərhələsində 19-cu mövzunun tədrisi zamanı şagirdlərin hazırladıqları cədvəli asaraq şagirdlərə bu cədvəldə dəyişiklik və əlavələr etmək tapşırıla bilər. Bunun üçün şagirdlərə rəngli stikerlər paylanılmalıdır.

**Ev tapşırığı:** Şagirdlərə dəm qazından zəhərlənmə zamanı davranış qaydalarına aid slayd təqdimatı və yaxud referat hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə:**

• İzahetmə

| I | II | III | IV |
|---|---|---|---|
| Davranış qaydalarının bir qismini izah edir. | Konkret fövqəladə hadisə zamanı tələb olunan davranış qaydalarını izah edərkən səhvə yol verir. | Davranış qaydalarını müəllimin köməyi ilə izah edir. | Davranış qaydalarını nümunələrlə sistemli izah edir. |



LAYİHƏ

# Mövzu 22. Yol nişanlarına diqqət edək

| Alt standart | 4.2.2. Yol nişanlarının təyinatına uyğun bacarıqlar nümayiş etdirir. |
|---|---|
| Məqsəd | Yol nişanlarını təyinatına görə qruplaşdırır. |

Mövzunun tədrisinə Ⓐ blokunda verilmiş motivasiya ilə başlaya bilərsiniz. Bunun üçün şagirdlərə dərslikdə verilmiş yol nişanlarına baxıb onların nəyi ifadə etdiyini müəyyənləşdirmək tapşırılır. Şagirdləri “Bu nişanları necə qruplaşdırmaq olar? Onları nəyə görə belə qruplaşdırdınız?” sualları ətrafında müzakirəyə cəlb edərək fərziyyələrini lövhədə qeyd edə bilərsiniz. Dərsin ümumiləşdirmə və nəticə mərhələsində tədqiqat sualına və bu fərziyyələrə qayıtmaq vacibdir.

Tədqiqata başlamazdan əvvəl Ⓓ blokunu şagirdlərdən birinə oxutmaqla hər bir bəndi siniflə müzakirə etməyiniz vacibdir. Əsasən, Ⓓ blokunun sol sütununda verilmiş qruplaşmalar müzakirə olunmalıdır. Çünki bu mövzunun tədrisinə illik planlaşmada 2 saat vaxt ayrılmışdır. Növbəti saatda Ⓓ blokundakı digər 4 qruplaşdırılmış yol nişanı araşdırıla bilər. Müzakirə “Nəyə görə bu qrup belə adlanır? Sizcə, bu qrupa aid olan nişanlar hansılar olmalıdır?” sualları ətrafında aparıla bilər.

Tədqiqat qruplarda davam etdirilə bilər. Şagirdlər Ⓒ blokundakı tapşırıqları qrupda yerinə yetirə bilərlər. Tədqiqatın aparılması üçün şagirdlərə yalnız müzakirə edilmiş yol nişanlarına uyğun tapşırıqların verilməsi məqsədəuyğundur.

Digər yol nişanları (əlavə məlumat nişanları, üstünlük nişanları, servis nişanları və nəqliyyat vasitələrini tanıma nişanları) ilə bağlı Ⓓ blokunda və Ⓒ blokunda verilmiş məzmun, Ⓕ blokunda verilmiş tapşırıqlar növbəti dərs saatında araşdırılmalıdır. 4.2.2. məzmun standartının tələblərini aşmamaq şərtilə sinfinizdəki şagirdlərin marağını nəzərə alaraq başqa tapşırıqlardan da istifadə edə bilərsiniz.

Tədqiqatın nəticələri müzakirə olunmalı və ümumiləşdirilməlidir. Bu mərhələdə şaxələndirmə üsulundan, eyni zamanda aşağıdakı linkdən istifadə edə bilərsiniz:

https://youtu.be/M9NjCutLFjo;

https://youtu.be/_OoLHbNC17A

Yaradıcı tətbiqetmə mərhələsində şagirdlərə ya aşağıdakı tapşırığı, ya da summativ qiymətləndirmə vasitələrində verilmiş 29-cu tapşırığa müvafiq başqa bir tapşırıq verə bilərsiniz.

Ev tapşırığı kimi şagirdlərə summativ qiymətləndirmə vasitələrində verilmiş 8-ci tapşırığa müvafiq tapşırıq verə bilərsiniz.

LAYİHƏ

**Qiymətləndirmə:**

• Qruplaşdırma

| I | II | III | IV |
|---|---|---|---|
| Yol nişanlarını sadalayır, qruplaşdırmaqda çətinlik çəkir. | Yol nişanlarını qruplaşdırarkən səhvlərə yol verir. | Yol nişanlarının bir qismini müəllimin yönəldici sualları əsasında qruplaşdırır. | Yol nişanlarını təyinatına uyğun düzgün qruplaşdırır. |



LAYİHƏ

## Summativ qiymətləndirmə vasitələrinə dair nümunələr

1. Aşağıdakılardan hansı sağlamlığa mənfi təsir göstərir?

a) İdman, siqaret çəkməmək
b) Yuxu rejiminə əməl etməmək
c) Əlləri tez-tez yumaq
d) Saçları daramaq

2. Hansı sırada ***fövqəladə hadisələr*** sadalanıb?

1. Zəlzələ, sunami
2. Heyvanların çoxalması, bitkilərin böyüməsi
3. Tufan, vulkan püskürməsi
4. Sel, torpaq sürüşməsi

a) 1, 2, 4
b) 1, 3, 4
c) 1, 2, 3

3. Aşağıdakılardan hansı zəlzələ zamanı düzgün davranış qaydasıdır?

a) Mənzilin və otağın qapısını açmaq
b) Dərhal yüksək bir yerə çıxmaq
c) Telefon ilə danışmamaq
d) Pəncərələrin kənarını kağız lent ilə bağlamaq

4. Dəri xəstəliklərinə yoluxmamaq üçün hansı qaydalara əməl olunmalıdır?

____1.__________________________________________________
____2.__________________________________________________
____3.__________________________________________________
________________________________________________________
________________________________________________________

5. Aşağıdakılardan hansılar təhlükəlidir?

1. Naqilin üstü açıq olarsa
2. Tozsoran, çaydan və soyuducu eyni vaxtda cərəyana qoşularsa
3. Naqilin üstü bağlı olarsa
4. Naqil istilik batareyalarına toxunarsa
5. Ştepseldən deyil, naqildən tutub dartsaq

a) 1, 4, 3, 2
b) 1, 2, 3, 5
c) 1, 3, 4, 5
d) 1, 2, 4, 5

LAYİHƏ

6. Hansı cavabda sağlamlığın şərti düzgün göstərilmişdir?

a) Çox yemək
b) Şirniyyatdan çox istifadə etmək
c) Spirtli içki qəbul etmək
d) İdman etmək

7. Aşağıda verilənlərdən hansılar sağlamlığımızı təhlükə qarşısında qoyur?

1. Elektrik qəzaları
2. Evlərdə yanğın
3. Üzgüçülük
4. Nəqliyyat qəzaları
5. Yoluxucu xəstəliklərdən qorunmaq

a) 1, 5, 3
b) 1, 5, 2
c) 1, 2, 4
d) 3, 4, 5

8. Yol nişanlarını adlandırın və hansı qrupa aid olduğunu müəyyənləşdirin.



















LAYİHƏ

9. Aşağıdakı nişanları qruplaşdırın.

1. 

2. 

3. 

4. 


5. 

6. 

a) Xəbərdarlıq nişanları –
b) Qadağan nişanları –
c) Məlumatverici göstərici –
d) Üstünlük nişanları –

10. Aşağıdakılardan hansı məcburi hərəkət istiqaməti nişanlarına aiddir?

a) Yaşayış məntəqələrinin və başqa obyektlərin yerləşməsi barədə məlumat verir.
b) Sürücülərə nəqliyyat vasitələrinin hərəkətinin icazə verilmiş istiqamətini, sürətini, piyadalar üçün nəzərdə tutulan yolları göstərir.
c) Bu nişanların dairəvi forması və qırmızı fonu vardır.
d) Qırmızı haşiyəli və ağ fonu olan üçbucaq formasındadır.

11. Küçədə hansı xoşagəlməz hallarla qarşılaşmaq mümkündür?

1. Terror
2. Silahlı toqquşma
3. Sulu əllərlə rozetkaya toxunmaq
4. Nəqliyyat qəzaları
5. İt dişləməsi

a) 1, 3, 5
b) 1, 2, 4, 5
c) 1, 5
d) 2, 3, 5
e) 1, 3, 4, 5

LAYİHƏ

12. Aşağıdakılardan hansı dövlətin müdafiə funksiyasına aiddir?

a) Dövlət bazara nəzarət edir, malın bahalaşmasına, şirkətlərin ağalığına imkan vermir.
b) Yeni iş yerləri açılır, əməkhaqları, təqaüdlər, pensiyalar artırılır və s.
c) İnsanların hüquqlarını qoruyur, hüquq normalarını müəyyən edir.
d) Ölkənin ərazi bütövlüyünü qoruyur, müdafiə edir.
e) Ölkədə pulsuz ümumi və orta təhsil almaq üçün şərait yaradır.

13. Respublikamızda Milli Məclisin verdiyi qanunları hansı qurum yerinə yetirir?

a) Məhkəmə
b) İcra hakimiyyəti
c) BMT
d) ATƏT

14. Aşağıdakılardan hansı doğrudur?

a) Maddənin aqreqat halı, rəngi, iyi, dadı, həllolma qabiliyyəti maddənin fiziki xassələridir.
b) Rastlaşdığımız nə varsa, maddədir.
c) Su, hava, alov maddənin maye halındadır.
d) Su mayedir, bərk hala keçə bilmir.

15. Aşağıdakılardan hansı nümunəvi davranış qaydalarına aiddir?

a) Yaltaqlıq
b) Yalançılıq
c) Səhvini qəbul etməyi bacarmaq
d) Kobudluq
e) Danışanın sözünü kəsmək
f) Sinif yoldaşları ilə mübahisə etmək

16. Radioaktiv çirklənmə zamanı nə etmək lazımdır?

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

LAYİHƏ

17. Cümlələri tamamlayın.

1. Müsəlmanlar üçün müqəddəs gün ______________________________
2. Xristianlar üçün müqəddəs gün ________________________________
3. Yəhudilər üçün müqəddəs gün ________________________________

18. Səmavi dinlərin oxşar cəhəti hansıdır?

a) Müqəddəs günlərinin bazar günü olması
b) Uca Yaradanın tək olması
c) Dini kitablarının eyni olması
d) Dini bayramlarının eyni olması
e) Peyğəmbərlərinin eyni olması

19. Aşağıdakılardan hansı İslam dininə aiddir?

1. Gündə 5 dəfə namaz qılmaq
2. Kilsədə ibadət etmək
3. Həcc ziyarətinə getmək
4. Ramazan ayında oruc tutmaq
5. Günahlardan təmizlənmək üçün keşişə müraciət etmək

a) 2, 3, 5
b) 1, 3, 4
c) 1, 3, 5
d) 1, 2, 3
e) 3, 4, 5

20. Xristianlıq ilə İslam dinini fərqləndirin.

| | İslam | Xristianlıq |
|---|---|---|
| İbadət yeri | | |
| Müqəddəs günləri | | |
| Dini bayramları | | |

21. Verilən variantlardan hansı doğrudur?

a) Bərk maddələr sıxıla bilir.
b) Bərk cisimlər plastik və elastik olmaqla 2 qrupa bölünür.
c) Bərk maddələrin molekulları seyrəkdir.
d) Su bərk halda olan maddədir.

LAYİHƏ

22. Fikirlərdən hansı yanlışdır?

a) Saf su 100 dərəcə temperaturda qaynayır.
b) Maddələr bəsit və mürəkkəb olmaqla 2 yerə ayrılır.
c) Qarışıqların tərkibində bir növ atom və molekullar olur.
d) Qeyri-üzvi maddələr üzvi maddələrə çevrilə bilməz.

23. Dövlətin xarici funksiyasına nələr aiddir?

24. Monarxiya idarəetmə forması nədir?

25. Tələbin artıb-azalmasının iki səbəbini yaz?

26. Aşağıdakılardan hansı münaqişələr zamanı düzgün davranış qaydalarına aiddir:

səbirli olmalı, nəzakət qaydalarına əməl etməməli, münaqişəyə fikir verməməli, əməkdaşlıq etməli, lovğalanmalı, fiziki güc tətbiq etməli, kompromisə getməli

27. Maddənin kimyəvi xassələri hansılardır?

a) Rəngi
b) Qaynama temperaturu
c) Digər maddələrə çevrilməsi
d) Dadı



LAYİHƏ

28. Ünsiyyətin səmərəli olmasının 3 qaydasını yazın?

29. Verilmiş şəkildə hansı yol nişanları göstərilmişdir. Bu yol nişanı hansı qrupa aiddir.



30. Yaxşı yuyulmamış meyvə və tərəvəzdən istifadə, yaxşı bişməmiş ətin yeyilməsi hansı xəstəliklərə səbəb olur?

a) bakterial xəstəliklər
b) qurd xəstəlikləri
c) virus xəstəlikləri
ç) göbələk xəstəlikləri
e) birhüceyrəlilərin törətdiyi xəstəliklər

LAYİHƏ

**İstifadə edilmiş və müəllimin istifadə edə biləcəyi mənbələr:**

1. Ayna Uşaq Ensiklopediyası.
2. Azərbaycan heyvanlar aləmi. “Çaşıoğlu” nəşriyyatı, 2009.
3. Ə.Hüseynzadə. Atalar sözü. Bakı, 1985.
4. F.Qasımzadə. İdman, gözəllik və estetika. Bakı, 1970.
5. Həyati bacarıqlara əsaslanan təhsil. II, III hissə. Bakı, 2007.
6. İ.Ə.Ağayev, X.N.Xələfli, F.Ş.Tağıyeva. Epidemiologiya. 2012.
7. Qurani-Kərim. Azərnəşr, 1992.
8. Müdrik sözlər aləmində. Bakı, 1984.
9. N.Əkbərov. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları. “Bərəkət” nəşriyyatı, 2010.
10. N.Əkbərov, A.Bayırlı, E.Qubadlı. Mənəviyyat. Bakı, 2004.
11. N.Əkbərov. Məktəbdə əxlaq və davranış qaydaları. “Bərəkət” nəşriyyatı, 2010.
12. N.Məmmədzadə. Mənim gözəl dinim. Bakı, 2007.
13. Özünə və başqalarına kömək etməyi bacar (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi). Bakı, 2004.
14. V.S.Mixaylov, A.L.Pruşina, N.A.Moqilini. Qidalanma mədəniyyəti və ailəmin sağlamlığı. Bakı, 1991.
15. Секреты умелого руководителя. Москва, 1991.



LAYİHƏ

# Buraxılış məlumatı


**HƏYAT BİLGİSİ 6**

*Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün*
*Həyat bilgisi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2021-046)*

**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Nüşabə Məmmədova**<br>**Könül Mahmudova** |
| İxtisas redaktoru | **Ülviyyə Eyyubova** |
| Buraxılışa məsul | **Rafiq Kazımov** |
| Üz qabığının dizayneri | **Nurlan Nəhmətov** |
| Dizayner və səhifələyici | **Allahverdi Kərimov** |
| Redaktor | **Yeganə Abdullayeva** |
| Korrektor | **Nigar Əliyeva** |
| Texniki redaktor | **Sevinc Yusifova** |
| Baş redaktor | **Samirə Bektaşi** |
| Texniki direktor | **Xəqani Fərzalıyev** |
| Nəşriyyat direktoru | **Sevil İsmayılova** |

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**



Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələrilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 4,5. Fiziki çap vərəqi 5,5. Formatı 70x100$^{1}/_{16}$.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 88.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj . Pulsuz. Bakı – 2021

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

Çap məhsulunu nəşr edən:
**“Şərq-Qərb” ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Çap məhsulunu istehsal edən:
**“Şərq-Qərb” ASC**
**(Bakı, AZ1123, Aşıq Ələsgər küç., 17)**



LAYİHƏ

Pulsuz

LAYİHƏ